www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13 iyun 2025-ci il Cümə № 101 (8711) Qiymәti 60 qәpik

## Xəbər

### ABŞ İranla müharibənin bir addımlığında

yazısı səh.10-da

## Gündəm

### Moskva Azərbaycan-NATO əlaqələrindən əndişədə



Belə rəy yaradılır ki, guya Bakı alyansla Rusiya ilə münasibətlərdə yaranmış gərginlikdən sonra əməkdaşlığa başlayıb

yazısı səh.9-da

### Şuşa Bəyannaməsinin 4-cü ildönümü

yazısı səh.5-də

### ABŞ-dakı aksiyalarda SSRİ bayrağı-Bakıdan baxış

yazısı səh.7-də

### Hindistan İrəvana hansı qırıcıları verir?

yazısı səh.8-də

### Qazaxıstan Ukraynanın taleyini yaşaya bilərmi?

yazısı səh.12-də

### Azərbaycan turizmində milyardlıq artım vədi

yazısı səh.13-də

### "Rusiya Almatı Bəyannaməsini rədd edir" iddiası

yazısı səh.12-də

### "Kərimə" dövləti qurmaq istəyənlərə ağır cəza

yazısı səh.3-də

### Həcc əvəzinə məktəb tikmək

yazısı səh.11-də

### "Ağcaqayın yarpağı" ölkəsi Bakı ilə barışır

yazısı səh.6-da

### Okeanın o tayından yenə "dini etiqad" böhtanı

yazısı səh.11-də

### TÜRKPA-ya sədrlik bu ölkəyə keçdi

yazısı səh.5-də

# "TÜRK NATO"SU ÜÇÜN İLK ADDIM - BU GÜN RƏSMİLƏŞİR

TDT hərbi-siyasi blokun əsası kimi səhnəyə çıxır; Azərbaycan parlamentinin qərarı ilə yeni proses başlanır - şərh



yazısı səh.5-də

## İrəvanda "iylənmiş dövlət"i yenə ortaya çıxardılar

Nikol Paşinyanın sülh nağılları danışdığı bir vaxtda sülhə ağır zərbə vura biləcək eksperimentlər dövriyyəyə buraxıldı; Ermənistanda separatçılara kənardan "zəhər verən kərtənkələlər" var

yazısı səh.4-də



### Məleykə Abbaszadə ittihamlara cavab verdi

yazısı səh.3-də



### Alim Qasımovun rep oxuması - kimlər nə dedi?

yazısı səh.15-də



### Tağı İbrahimov Çovdarov kimi həbsdən buraxıla bilər

yazısı səh.3-də

# Qaz və işıqla bağlı yeni qanun nə vaxt qüvvəyə minəcək?



Azərbaycanda elektrik və qaz pulu ödənilməsində sabit tarif tətbiq ediləcək. Məlumata görə, hər iki qanun layihəsi parlamentin iyunun 13-də keçiriləcək plenar iclasında müzakirəyə çıxarılacaq. Deputatlar təsdiqlədikdən sonra Prezidentin imzası ilə qanunlar qüvvəyə minəcək.

Ancaq qaz təchizatı haqqında qanunun bəzi müddəaları dərhal qüvvəyə minməyəcək.

Belə ki, qanun layihəsinə görə, sənəd 2026-cı il yanvarın 1-də qüvvəyə minəcək. Qanunun bəzi müddəaları (qazın paylanması tarifləri) 2027-ci ildə, bəzi maddələri (Qaz təchizatı sektorunda dövlətin vəzifələri) 2028-ci ildə tətbiq ediləcək. Elektrik enerjisi barədə dəyişikliklər isə prezidentin imzalamasından sonra tətbiq ediləcək.



## Prezident zavod açılışında

**Prezident İlham Əliyev Bakıda "Nobel Food Industry" MMC-nin müxtəlif növ və çeşiddə qəlyanaltı məhsullarının istehsalı zavodunun açılışında iştirak edib.**

İqtisadiyyat naziri Mikayıl Cabbarov və "Azərsun Holding"in Müşahidə Şurasının sədri Əhməd Gözəl müəssisənin fəaliyyəti barədə dövlətimizin başçısına məlumat veriblər.

"Azərsun Holding"ə məxsus "Qafqaz" konserv zavodu və "Shervan" MMC-nin həmtəsisçiliyi ilə istismara verilən bu müəssisədə müxtəlif növ və çeşiddə qəlyanaltı məhsulları - popkorn, çərəz və quru meyvə istehsal olunacaq. Məhsulların yerli istehlakçılara təqdim edilməsi ilə bərabər, müxtəlif ölkələrə ixracı da nəzərdə tutulur.

Zavodun ümumi investisiya dəyəri 38 milyon manat təşkil edir ki, bunun da 5 milyon manatı Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən ayrılmış güzəştli kreditdir.

## Bakıdan Hindistana başsağlığı

**Hindistanda qəzaya uğrayan "Air India" aviaşirkətinə məxsus "Boeing 787-8 Dreamliner" təyyarəsinin göyərtəsində olan 242 nəfərin hamısı həlak olub.**

Həlak olanlar arasında 10 ekipaj üzvü və bort bələdçiləri var.

Təyyarənin göyərtəsində 169 hindistanlı, 53 Böyük Britaniya vətəndaşı, 7 portuqaliyalı və bir kanadalı sərnişin olub.

İlkin məlumatlara görə, hava gəmisi quşla toqquşub və uçuş üçün optimal sürətə çata bilməyib.

Azərbaycan Xarici İşlər Nazirliyi Hindistana Əhmədbad şəhərində baş verən faciəvi təyyarə qəzası ilə bağlı başsağlığı verib.

Bu barədə nazirliyin rəsmi X hesabında yazılıb.

"Hindistanın Əhmədbad şəhərində baş verən faciəvi təyyarə qəzasından dərin kədər hissi keçiririk. Hadisədə həlak olanların ailələrinə və yaxınlarına başsağlığı veririk. Yaralılara qarşıdakı günlərdə güc və şəfa diləyirik".

## Çimərlik mövsümü bu tarixdə başlayır



**Azərbaycanda çimərlik mövsümü iyunun 15-dən etibarən başlayacaq. Ümumilikdə isə bölgədə çimərlik mövsümü iyun ayının əvvəllərindən sentyabr ayının əvvəlinə qədər davam edir.**

Abşeron yarımadasında - Şıx, Sahil, Buzovna, Novxanı, Görədil və Pirşağı çimərliklərində İDEA İctimai Birliyi tərəfindən ictimai çimərliklər yaradılıb. Həm ictimai, həm də özəl çimərliklərdə və istirahət mərkəzlərində polis əməkdaşları tərəfindən asayişin qorunmasına nəzarət edilir, Fövqəladə Hallar Nazirliyinin əməkdaşları və tibb işçiləri ərazidə xidmət aparırlar.

Qeyd edək ki, ictimai çimərliklərə giriş tamamilə pulsuzdur və bu ərazilərdə heç bir xidmət üçün ödəniş tələb olunmur. Özəl çimərliklərə də giriş ödənişsizdir, lakin göstərilən xidmətlərə (kafedən, güllük və sanitariya qovşaqlarından istifadə və s.) görə ödəniş edilir.

## İki ayda 8 nəfər qarpızdan zəhərlənib



**Qarpız mövsümünün hələ başlamamasına baxmayaraq, bazarlarda satışı artmaqda davam edir.**

Ancaq vaxtından əvvəl yetişdirilən və düzgün şəraitdə saxlanılmayan qarpızlar sağlamlıq üçün ciddi risklər yaradır.

Mətbuatda da qarpızda zərəhlənən şəxslərin olduğu barədə xəbərlər yayılıb.

Kliniki Tibbi Mərkəzdən verilən məlumata görə, bu il may-iyun ayları ərzində Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinə qarpızdan zəhərlənmə diaqnozu ilə 8 nəfər müraciət edib. "Hər birinə ilkin tibbi yardım göstərilib, ölüm halı qeydə alınmayıb", - Mərkəzdən verilən məlumatda belə deyilir.



## Allerqoloqdan valideynlərə çağırış

**Yay aylarında uşaqlarda qida allergiyasına daha çox rast gəlinir. "Report" xəbər verir ki, bunu Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun həkim allerqoloqu Nihulya Şamilova deyib.**

Onun sözlərinə görə, qida allergiyasına çiyələk, şaftalı kimi meyvələr, dondurma və s. qidalar səbəb olur:

"Bunlarla yanaşı, valideynlər allergiyası olan uşaqları hovuza apararkən diqqətli olmalıdır. Hovuzda xlorun miqdarının çoxluğundan alergiyalar özünü büruzə verə bilər".

Həkim onu da vurğulayıb ki, əgər ailədə valideynlərdən birində allergik anamnez varsa, bunun uşağa keçmə ehtimalı 20-30 faiz, valideynlərdən ikisində də allergik anamnez varsa, uşağa keçmə ehtimalı 50-60 faizdir:

"Valideyn özündə allergik xəstəlik varsa, övladlarında da allergik reaksiyalardan klinik bir əlamət görərsə, mütləq həkimə müraciət etməlidir. Belə olduğu halda allergik müayinələrdən keçmək lazımdır. Uşaqlarda daha çox qida allergenlərinə rast gəlinir. Bu da erkən uşaqlıq dövründə özünü allergik səpkilər və ya ishal, qəbzlik, köp şəklində göstərir. Uşaqlarda daha çox süd və yumurtaya qarşı allergik reaksiyalar olur".

## Ad və soyadı necə dəyişdirmək olar?



**Azərbaycanda ad və soyadı, soyadın sonluğunu dəyişmək mümkündür. 18 yaşına çatdıqdan sonra hər bir Azərbaycan Respublikası vətəndaşı öz adını, ata adını və soyadını özü şəxsən dəyişdirə bilər.**

18 yaşı tamam olmamış şəxslərin adının, eləcə də soyadının dəyişdirilməsi isə onların valideynlərinin və digər qanuni nümayəndələrinin (övladlığa götürənlərin, qəyyumun və ya himayəçinin) ərizəsi əsasında həyata keçirilir.

Ölkəmizdə ad, soyad və ata adını dəyişdirmək istəyənlərin sayı da çoxdur.

Modern.az-ın sorğusuna cavab olaraq Ədliyyə Nazirliyindən bildirilib ki, 2024-cü il ərzində qeydiyyat orqanları tərəfindən 2667 şəxsin soyadının, adının və ya ata adının dəyişdirilməsi rəsmiləşdirilib.

Ad, soyad və ata adını dəyişdirmək üçün hara müraciət etmək lazımdır?

Bunun üçün vətəndaşlar ASAN xidmətə, ölkədə daimi yaşayan vətəndaş isə yaşayış yeri üzrə isə konsulluğa müraciət etməlidir.

Uşaq 18 yaşına çatana qədər onun adının dəyişdirilməsinə, eləcə də soyadının digər valideynin soyadına dəyişdirilməsinə valideynlərin birgə razılığı əsasında icazə verilir. Razılıq olmadıqda isə yerli icra hakimiyyətinin qəyyumluq və himayə orqanı tərəfindən həll edilir. Bu zaman hər bir halda uşağın mənafeyini nəzərə alınır və 10 yaşı tamam olmuş uşaqdan onun fikri soruşulur.

Ad, soyad və ata adını dəyişdirmək üçün dövlət rüsumu 15 manatdır.

## Polis Sumqayıtda əməliyyat keçirdi

**Polis əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə davam etdirilir.**

Sumqayıt şəhəri ərazisində həyata keçirilən tədbirlər zamanı əvvəllər məhkum olunmuş 37 yaşlı O.Məmmədov və ona narkotik vasitəni satmış əvvəllər məhkum olunmuş 47 yaşlı N.Nəcəfov şübhəli şəxs qismində saxlanılıblar. Onlardan və yaşadıqları evlərə baxış zamanı 1 kiloqrama yaxın tiryək, marixuana və metamfetamin aşkarlanıb.



## Şahin Mustafayev təltif edildi

**Baş nazirin müavini Şahin Mustafayev 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib. Bu barədə Prezident İlham Əliyev sərəncam imzalayıb. O, Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə təltif olunub.**

Qeyd edək ki, Şahin Mustafayev bu gün 60 yaşını qeyd edir.



## Kəlbəcərə ilk köç olacaq

**Kəlbəcər "Böyük Qayıdış"a hazırlaşır.**

Modern.az-ın məlumatına görə, artıq şəhərə köçəcək ailələr arasında püşkatma keçirilib. Püşkatma zamanı ailələrin hansı binada və mənzildə yaşayacağı müəyyənləşdirilib. Püşkatma mərasimində iştirak edən kəlbəcərli jurnalist, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın üzvü Aqil Camal bildirib ki, püşkatma mərasimində Kəlbəcər şəhər mərkəzinə köç edəcək insanlar iştirak ediblər: "Bu gün püşkatması keçirilən 81 ailə Kəlbəcər şəhər sakinləridir. Şəhərdə hazır binalar var. Həmin binaların 3-nə bu ailələrin köçürülməsi nəzərdə tutulub. Həmin ailələrin tərkibinə görə neçə otaqlı mənzil verilməsi müəyyənləşdirilmişdi. Bu püşkatma mərtəbəyə görə keçirilirdi. Dördmərtəbəli binalar idi. Bugünkü püşkatma üç bina üçün keçirilirdi. Hər kəs öz evini özü təyin etdi. Yaxın vaxtlarda Kəlbəcərə köç baş tutacaq".



## "Son zəng" nə zaman keçiriləcək?

**İyunun 14-də Azərbaycanda "Son zəng" tədbirləri keçiriləcək.**

Ancaq həmin gün qeyri-iş gününə təsadüf edir. Sosial şəbəkələrdə 5 və 6 günlük məktəblərdə "Son zəng" tədbirlərinin nə zaman keçiriləcəyi müzakirə edilir.

Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən bildirilib ki, bütün ümumtəhsil məktəblərində "Son zəng" tədbiri iyunun 14-də keçiriləcək.

# Tağı İbrahimov Çovdarov kimi həbsdən buraxıla bilər

## Hüquqşünas Cinayət Məcəlləsinin 157.5-ci maddəsindən danışdı - vaxtilə MTN-in sabiq idarə rəisi barəsində də seçilmiş həbs-qətimkan tədbiri bu səbəbdən dəyişdirilmişdi...

**2024-cü ilin yanvarından həbsdə saxlanılan 60 yaşlı Tağı İbrahimovun səhhətində ciddi problemlər yaranıb. Bu barədə onun hüquqlarını müdafiə edən vəkil, 6 saylı Vəkil Bürosunun üzvü Türkel Süleymanlı məlumat verib.**





Vəkilin "Qaynarinfo"ya verdiyi məlumata görə, Tağı İbrahimovun səhhəti ciddi şəkildə pisləşib: "Onun ürək-damar sistemi, qaraciyər və digər xroniki xəstəlikləri üzrə sağlamlıq durumu son dərəcə kritik hal alıb. Xüsusilə yay mövsümündə, temperaturun yüksəldiyi dövrdə bu cür xəstəliklərin daha da ağırlaşdığı, insult və infarkt riskini artırdığı bildirilir. Həbsxana mühitinin yaratdığı fiziki və psixoloji problemlər 60 yaşdan yuxarı şəxslər üçün əlavə təhlükə yaradır".

Türkel Süleymanlı vəziyyətin ciddiliyini vurğulayaraq bu şəraitin Tağı İbrahimov üçün həyati risk yaratdığını qeyd edib və təcili olaraq onun sağlamlıq vəziyyətinin tibbi ekspertiza ilə qiymətləndirilməsini, eyni zamanda alternativ qətimkan tədbirlərinə keçid imkanının nəzərdən keçirilməsini təklif edib.

Xatırladaq ki, Tağı İbrahimov 30 yanvar 2024-cü il tarixində "Bakı Ağac Emalı" ASC-yə məxsus ərazidə baş vermiş partlayış hadisəsi ilə bağlı saxlanılıb. Həmin ərazi Binəqədi rayonu 7-ci mikrorayon, Xarici dairəvi küçəsində yerləşir və iş adamı Zaur Qulu oğlu Cəfərova icarəyə verilmişdi. Onun tərəfindən mebel sexi kimi istifadə edilən sahədə baş verən partlayış nəticəsində insan tələfatı, xəsarətlər və ciddi dağıntılar meydana gəlib. Hadisə ilə bağlı aparılan istintaq çərçivəsində Tağı İbrahimov saxlanılıb və onun barəsindəki həbs-qətimkan tədbiri seçilib, daha sonra bu tədbirin müddəti məhkəmə tərəfindən uzadılıb. T.İbrahimov bir ildən çoxdur ki, həbsxana şəraitində saxlanılır. Hazırda insan haqları və məhkumların hüquqları ilə məşğul olan təşkilatların diqqətinə çatdırılan bu məsələ yaşı 60-dan yuxarı olan və xroniki xəstəliklərdən əziyyət çəkən şəxslərin hüquqi müdafiəsi və humanist yanaşma məsələsini gündəmə gətirir. O da MTN generalı Akif Çovdarov kimi azadlığa buraxıla bilərmi?

**"Bakı" Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov "Yeni Müsavat"a deyib ki, Tağı İbrahimov səhhətinə görə azadlığa buraxıla bilər:** "Tağı İbrahimovun həbsi ilə bağlı yaranmış vəziyyət Azərbaycan qanunvericiliyində nəzərdə tutulmuş bir sıra hüquqi mexanizmlərin tətbiqi zərurətini gündəmə gətirir.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 157.5-ci maddəsinə əsasən, saxlanılan şəxsin ağır xəstəlikləri varsa və bu xəstəliklər onun cəzaçəkmə şəraitində saxlanılmasına imkan vermirsə, həmin şəxs barəsində seçilmiş həbs-qətimkan tədbiri dəyişdirilə və daha yüngül alternativ tədbirlə əvəz oluna bilər. Bunun üçün müstəqil tibbi ekspertiza rəyinin olması vacibdir. Əgər həmin rəy Tağı İbrahimovun real həyati risk altında olduğunu təsdiqləyərsə, istintaq orqanı və məhkəmə bu şəxsin ev dustaqlığı və ya digər alternativ qətimkan tədbirinə buraxılması barədə qərar verə bilər".

**Natiq Ələsgərovun sözlərinə görə, Azərbaycan məhkəmə təcrübəsində bu cür hallara nadir də olsa rast gəlinir:** "Misal üçün, keçmiş MTN generalı Akif Çovdarov da səhhətindəki ağır problemlər səbəbindən cəzaçəkmə yerindən azad edilmişdi. Onun işində məhz həkim rəyləri əsas götürülərək qərar çıxarılmışdı. Bu baxımdan Tağı İbrahimov üçün də eyni hüquqi baza mövcuddur. Lakin burada əsas məsələ müstəqil və obyektiv tibbi ekspertiza rəyinin mövcudluğudur".

**Natiq Ələsgərov əlavə edib ki, beynəlxalq hüquqi sənədlərdə, o cümlədən BMT-nin Minimum Standart Qaydalarında da 60 yaşdan yuxarı şəxslərin və ağır xəstəlikləri olan məhbusların saxlanma şəraitinə xüsusi diqqət yetirilməsi tövsiyə olunur:** "Əgər Tağı İbrahimovun vəziyyəti doğrudan da kritikdirsə, bu halda onun həbsdə saxlanılması Avropa İnsan Hüquqları Konvensiyasının 3-cü maddəsinin (qeyri-insani və ləyaqəti alçaldan rəftarın qadağan olunması) tələblərinin pozulması kimi qiymətləndirilə bilər. İstənilən halda dövlət insan həyatına və sağlamlığına təhdid yaratmamalıdır. Məhbusun səhhəti risk altındadırsa və bu barədə məlumat yayılıbsa, dövlət orqanları məsələyə xüsusi diqqətlə yanaşmalıdır. Yeni Tağı İbrahimov üçün Akif Çovdarov ssenarisi realdır. Hüquqi baza var, presedent mövcuddur, maddi və şəxsi əlaqələr də öz yerində mövcuddur. Amma bu qərarın hüquqi sistemə, dövlətin reputasiyasına və ictimai ədalət hissinə təsirləri də az olmayacaq. Tağı İbrahimovun azadlığa buraxılması "selektiv ədalət" nümunəsi kimi qəbul olunacaq. Tağı İbrahimov azadlığa buraxılarsa, bu qərar digər yaşlı və ağır xəstəlikli məhbuslar üçün də keçərli olmalıdır".

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**



# Məleykə Abbaszadə ittihamlara cavab verdi

## DİM sədri: "İki aya heç nəyi dəyişmək mümkün deyil"

**II və III ixtisas qrupları üzrə keçirilmiş qəbul imtahanının nəticələri elan edilib. Nəticələrə əsasən heç bir abituriyent maksimum nəticəni əldə edə bilməyib.**

Bir çoxları nəticələrin aşağı olmasının səbəbinin Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən keçirilən qəbul imtahanlarında sualların çətin və proqramdan kənar olması ilə bağlı olduğunu deyir.

DİM sədri Məleykə Abbaszadə bu cür ittihamlara cavab verib. "Hər imtahan bitəndən sonra tam bazanı, kim necə cavab verib, sualı necə işləyib, bu haqda məlumatı Elm və Təhsil Nazirliyinin müvafiq qurumlarına ötürürük, onlar da bunu araşdırır".

M.Abbaszadə bildirib ki, datalara baxdıqda sualların 11-ci sinif proqramına aid olmadığını və məktəb proqramında daha aşağı siniflərdə keçirilən mövzuları əhatə etdiyini görürük. "Buraxılış imtahanının məzmununa baxsaydınız görərdiniz ki, faktiki olaraq orada istifadə olunan suallar 8-ci, 9-cu, bir az da 10-cu sinfin proqramlarını əhatə edir. Biz demək olar ki, 11-ci sinfin proqramına toxunmuruq. Amma səriştələri yoxlayırıq. 11-ci sinfə qədər oxuyub, o səriştəni biz o insanda görmürüksə, 2 ay sonra nə apreldə, nə mayda o səriştəni o insanda formalaşdırmaq mümkündür. Elə müəllim varsa, gəlib desin mümkündür. Səriştə dedikdə tanış, dərslikdə olmayan mətni oxuyub anlamağı nəzərdə tuturam. Kurikulumun standartlarını hər bir şəxs oxuya bilər. Biz imtahan nəticələrini elan edəndə deyirik ki, bu tapşırıqlar, kurikulumun bu standartına uyğundur və hansı sinfin proqramına əsaslanır", - deyə DİM sədri Baku TV-yə müsahibəsində bildirib.

DİM sədri sosial şəbəkələrdə və "YouTube" platformasında bəzi repetitorların özlərini DİM-lə əməkdaş kimi təqdim etməsi haqqında da danışıb. O, bu cür halların araşdırıldığını və reallığı əks etdirmədiyini deyib: "Bir müəllim repetitorluq edirsə, o, bizimlə əməkdaşlıq etmir. Çünki bizimlə əməkdaşlıq edən insanların kifayət qədər iş yükü var, bununla əlaqədar da əmək haqqı alırlar və özlərini repetitor kimi reklam edəndə göstərirlər ki, biz Dövlət İmtahan Mərkəzi ilə əməkdaşlıq edirik. Hansı ki, bu cür hallar yutub və sosial şəbəkələrdə də qarşımıza çıxır və bazada axtarırıq, görürük ki, bu adam heç bizimlə əməkdaşlıq etməyib. Ola bilsin ki, 15 il əvvəl bizə 3 sual verib".

❑ **"Yeni Müsavat"**

# "Kərimə" dövləti qurmaq istəyənlərə ağır cəza

**Terrorçuluqda ittiham olunan özlərini "Qisas qrupu" adlandıran 13 nəfərlik qrup üzvlərinin yekun məhkəmə iclası keçirilib.**

Məlumata görə, Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Novruz Kərimovun sədrliyi ilə keçirilən son prosesdə təqsirləndirilənlərə hökm oxunub.

Hökmlə Faiq Zeynalov 17 il, Hüseyn Hüseynzadə 16 il, Etibar Məmmədzadə 16 il, İlham Şıxaliyev 17 il, İlkin Bağırov 16 il, Vüqar Mədətov 16 il, Elvin Cəfərov 15 il 6 ay, Elgün Ağayev 16 il, Yusif Mirzəyev 15 il 6 ay, Ruslan Əliyev 15 il 6 ay, Savalan Hüseynli 15 il 6 ay, Məhərrəməli Musayev 15 il 6 ay və Mir Vasid Əliyev 10 il müddətinə azadlıqdan məhrum ediliblər.

Qeyd edək ki, təqsirləndirilən şəxslər Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) keçirdiyi əməliyyat-istintaq tədbirləri nəticəsində saxlanılıblar.



DTX-da istintaqı yekunlaşdırılmış cinayət işi üzrə təqsirləndirilən şəxslərə AR Cinayət Məcəlləsinin 170.3, 234.1-1, 274, 28,277 və 278.2-ci maddələri ilə ittiham irəli sürülüb.

Cinayət işinin materiallarından müəyyən olub ki, xarici xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən Axundzadə Rufulla Höccət oğlunun tapşırığı ilə Azərbaycan Respublikası ərazisində "Kərimə" adlı şəriət qanunları ilə idarə edilən dini dövlətin qurulması məqsədilə Telegram ani mesajlaşma sistemində Şıxaliyev İlham Kamal oğlu tərəfindən yaradılmış "Qisas" adlı gizli qrupun üzvləri Bakı və Sumqayıt şəhərlərində yerləşən müxtəlif hərbi və digər təyinatlı obyektlərin fotoçəkilişlərini aparmaq, əldə edilmiş məlumatları hazırda xarici ölkədə məskunlaşmış Rufulla Axundzadəyə və onun oğlu Əlimürsəl Axundzadəyə göndərmək, eləcə də Azərbaycan Respublikasının ictimai və siyasi xadimlərinin həyatına sui-qəsd etmək barədə Rufulla Axundzadədən tapşırıqlar alıblar.

Qeyd edək ki, sabiq təhsil naziri Misir Mərdanov və "Real TV"nin rəhbəri Mir Şahin Ağayev cinayət işi üzrə zərərçəkmiş şəxs qismində tanınıblar.

Təqsirləndirilən şəxslər onlara istinad edilən əməllərlə bağlı istintaq zamanı dəfələrlə etirafedici ifadələr veriblər. Cinayət işinin materiallarında həmin şəxslərin Rufulla Axundzadə qarşısında sədaqət andı içmələrinə dair videomateriallar, cinayət əməllərinə dair müxtəlif yazışmalar, səs yazıları mövcuddur.

YENİ MÜSAVAT
N 101 (8711) 13 iyun 2025

# İrəvanda “iylənmiş dövlət”i yenə ortaya çıxardılar

## Nikol Paşinyanın sülh nağılları danışdığı bir vaxtda sülhə ağır zərbə vura biləcək eksperimentlər dövriyyəyə buraxıldı; Ermənistanda separatçılara kənardan “zəhər verən kərtənkələlər” var

**Ermənistanda keçiriləcək seçkilərə bir il qalmış siyasi hərarət artmaqdadır. Baş nazir Nikol Paşinyanın kilsəyə hücumu, həmçinin onu təhdid edən siyasi müxalifəti zərərsizləşdirməklə bağlı tədbirləri belə radikalları dayandırmır.**

Ermənistan rəsmiləri Azərbaycanla sülh arzularına and içərkən, respublikanın paytaxtında aşağıda qeyd edəcəyimiz qəribə paralel hadisələr baş verir. Belə ki, İrəvanda mövcud olmayan “artsax”ın yeni “dövlət naziri” təyin edilib - Njde İskəndəryan. Üstəlik, qondarma təyinat haradasa gizli yerdə deyil, beynəlxalq arenada hakimiyyətləri dialoqdan, sabitlikdən, sabah da Bakı ilə sülh sazişi imzalamağa az qala hazır olmaqdan həvəslə danışan ölkənin paytaxtı İrəvanın tam mərkəzində baş tutub. Heç kimə sirr deyil ki, “artsax”dan yalnız kağız parçaları, simvollar və İrəvandakı bir neçə fəal qalıb. Bu səbəbdən Qarabağda ləğv edilmiş qondarma rejimin keçmiş rəhbəri Samvel Şahramanyan yenidən “prezident”liyə namizədliyini irəli sürməkdən imtina edib. Şahramanyanın Ermənistan hakimiyyətinin təzyiqləri nəticəsində namizədlikdən geri çəkildiyini yazır. “Beləliklə, prezident seçkiləri üçün müəyyən edilmiş müddət pozulub. Hazırkı "prezident"in səlahiyyət müddəti mayın 21-də başa çatdığı üçün son tarix mayın 31-i idi. Azərbaycanın 2023-cü ilin sentyabrında həyata keçirdiyi antiterror tədbirlərindən sonra qondarma qurum birdəfəlik ləğv edilib. Həmin vaxt qondarma qurumun “başçısı” Samvel Şahramanyan özü də bu həqiqəti təsdiqləyən sənədə imza ataraq, “qurumlar”ın 2024-cü il yanvarın 1-dən etibarən fəaliyyətini rəsmi şəkildə dayandırdığını bəyan etmişdi.



Burada əsas məsələ, bu informasiyaların hansı məqsədlə dövriyyəyə buraxılması və kimin maraqlarına xidmət etməsidir. Görünən odur ki, İrəvanda məskunlaşmış separatçı “rəhbər”lər, Ermənistanın bəzi siyasi dairələrinin dəstəyi ilə ləğv olunmuş rejimi süni şəkildə dirçəltməyə, onu siyasi və hüquqi cəhətdən “canlı” kimi təqdim etməyə çalışırlar. Bu informasiyaların əsas məqsədi daxili erməni auditoriyasına yönəlib. Ermənistan hakimiyyətinə müxalif olan dairələr - xüsusilə də “Qarabağ klanı” ilə bağlı qruplar - cəmiyyətə belə bir təsəvvür yaratmaq istəyirlər ki, guya “artsax” hələ də yaşayır", onun strukturları fəaliyyət göstərir və s.

S.Şahramanyanın bir neçə maddə üzrə istintaqa cəlb edilməsi onun geri çəkilməsinə səbəb oldu. Amma heç şübhə yoxdur ki, Paşinyan Şahramanyanı separatçı fəaliyyətinə görə deyil, növbəti ildə onun özünə seçkilərdə meydan oxuya biləcəyinə görə küncə sıxıb. Əks təqdirdə, baş nazir İrəvandakı separatçıların ofisini bağlayardı, revanşistləri susdurardı. Beləliklə, Nikol Paşinyanın sülh nağılları danışdığı bir vaxtda sülhə ağır zərbə vura biləcək eksperimentlər dövriyyəyə buraxıldı. Sözsüz ki, Ermənistanda boy qaldıran separatçılara kənardan “zəhər verən kərtənkələlər” var... Onların məqsədi həm Azərbaycana təzyiq göstərməkdir, həm də Paşinyanı cəzalandırmaq.

Bu arada məlum olub ki, separatçıların yaratdığı “artsax” caz “orkestr”i Moskvada iki konsert verəcək. “Orkestr” 14 iyunda “Moskva caz festivalı-2025"də iştirak edəcək. 15 iyunda isə Aleksey Kozlovun caz klubunda səhnəyə çıxacaq. Məlumdur ki, separatçıların yaratdığı bu "orkestr" Moskvada müvafiq icazə olmadan səhnəyə çıxa, konsert verə, hansısa festivala qatıla bilməz.

**Sosial Tədqiqatlar Mərkəzinin icraçı direktoru Sahib Məmmədov “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, köhnə “artsaxçılar” evcik-evcik oynayırlar, amma bunun arxasında ciddi adamların və ciddi qüvvələrin olması şübhə doğurmur**: “Ola bilər rəsmi İrəvan bunları dəstəkləmir və maliyyələşdirmir, amma onları maliyyələşdirən və "kabinet" üzvlərinə maaş verənlər də var. Bunlar həm də Ermənistandakı Qarabağ klanını ayaqda saxlamaq üçün səy göstərirlər. Fikrimcə, “artsaxçılar”ın fəallaşması həm də Ermənistandakı daxili vəziyyətlə bağlıdır. Qarşıda seçkilər var və bunlar əvvəlcə daxili revanşa nail olmaq istəyir. Paşinyan hakimiyyətini devirmək və “ölü canlar”dan birini “diriltmək” planları da istisna olunmur".

**S.Məmmədov şübhə etmir ki, Serj Sərkisyanın fəallaşması da bununla bağlıdır**: “Əlbəttə, xarici qüvvələr də bu məsələdə öz rolunu oynamaqdadır. Rəsmi İrəvan sülhdən danışmaqla Ermənistanı dünyaya "sülhpərvər dövlət" kimi təqdim etməkdədir. Daxildə isə revanşist qüvvələr fəallaşmadadır. Ola bilsin ki, bu qüvvələr gücünü əvvəlcə daxildə sınasınlar, "kapitulyant" adlandırdıqları Paşinyana qarşı yeni aksiyalara start versinlər". **Ekspert şübhə etmir ki, istənilən halda Ermənistanda separatçıların fəallaşması yaxşı heç nə vəd vermir:** “Ona görə də bizi sülh müqaviləsi bağlamaqla bağlı şərtlərimizdə israrlı olmağımızda tam haqlıyıq. Ərazi iddiası Ermənistanın Konstitusiyası ilə yanaşı, qanunvericiliyindən, dərsliklərindən, konsepsiya sənədlərindən də çıxarılmalıdır. Əslində sülh müqaviləsinin müddəaları içərisində Ermənistanın daxildə separatçı qüvvələrin yaranmasına imkan verməmək kimi öhdəliyinin də olması zərurəti var. Düzü, mən müqavilə layihəsi ilə tanış deyiləm, amma belə şərt olması və Ermənistan dövləti üzərinə belə öhdəliyin də qoyulması vacibdir”.

**Siyasi şərhçi Məhəmməd Əsədullazadə də əmindir ki, baş verənlərin seçkilərlə birbaşa əlaqəsi var**: “Ermənistanda separatçı qrupun dirilməsi əsasən seçkilər ərəfəsində müşahidə olunur. Müxalifət və kilsə bundan istifadə etməyə çalışır. Nikol Paşinyan deyir ki, ölkəsində Qarabağ hərəkatına icazə verməyəcəyəm, amma onlar özlərinə yeni "dövlət naziri" təyin edir. Baş nazir obyektivdirsə, Qarabağ separatçılarını həbs etməli və onların fəaliyyətinə icazə verməməlidir. Bu, Ermənistanın sülh mövqeyinə ziddir. Nikol Paşinyan ötən gün qeyd etdi ki, Zəngəzurda müharibə olarsa, Qarabağ separatçılarını göndərəcək. Görürük ki, Paşinyan onları hədələyir. Amma, “artsax” deyənlər müqavimət göstərir. Rusiya da burada maraqlıdır. Çünki separatçıların orkestri Rusiyaya konsert verməyə gedirsə, deməli, burada Kreml də maraqlıdır".

**M.Əsədullazadənin fikrincə, 2026-cı il seçkiləri öncəsi Ermənistanda siyasi vəziyyət böhranlı keçəcək:** “Amma Paşinyan Azərbaycana qarşı separatizmə icazə verməməlidir. Digər məsələlər isə bu ölkənin daxili işidir. Ermənistan da müxalifətin də əsas planı "artsax" məsələsini gündəmdə saxlamaq və seçki prosesində onlardan istifadə etməkdir. Bu məsələ digər ölkələrin də marağındadır. Xüsusilə Kreml tərəfindən müxalifətə aktiv şəkildə “artsax” məsələsini gündəmdə saxlamaq təlimatının verildiyini istisna etmirəm". Ekspert Ermənistanda gərginliyin baş verməsinin an məsələsi olduğu qənaətindədir: “Proseslərin gedişi göstərir ki, Ermənistanda siyasi qarşıdurma da gözlənilir. Paşinyana qarşı silaha əl atıla bilər, Rusiya da burada maraqlıdır. Görünən odur ki, Paşinyan separatçılara və müxalifətə qarşı sərt tədbirlərə əl atmasa, onun üçün proseslər arzuolunmayan gedişata gətirib çıxara bilər”. **Politoloq rəsmi Bakının məsələ ilə bağlı atmalı olduğu addımlardan da bəhs etdi:** “Azərbaycan Paşinyandan tələb etməlidir ki, Ermənistanda "artsax" oyunlarına tam son versin, bitirsin bu məsələni! “Artsax” məsələsi həm Paşinyanın siyasi hakimiyyəti, həm də Ermənistan üçün təhlükəlidir. Ermənistan müxalifəti və kilsə “artsax” şinelində gizlənib, onu devirmək üçün hərəkətə keçir”.

**E.PAŞASOY, “Yeni Müsavat”**

# Mnatsakanyan Aprel döyüşlərindən danışdı



**İyunun 12-də Bakı Hərbi Məhkəməsində davam etdirilən məhkəmə prosesində təqsirləndirilən şəxs Levon Mnatsakanyan 2016-cı ildə baş vermiş və şərti olaraq “Aprel döyüşləri” adlandırılan hadisələrlə bağlı dövlət ittihamını müdafiə edən prokurorun növbəti suallarını cavablandırıb.**

Həmin vaxt general-leytenant rütbəsi ilə qondarma rejimin “müdafiə naziri” olan L.Mnatsakanyan Aprel döyüşlərinin nəticələrinin Ermənistanda necə qiymətləndirilməsi barədə sualı cavablandırarkən, həmin döyüşlər zamanı 18 döyüş mövqeyi “itirdiklərini” bildirib.

Məhkəmədə L.Mnatsakanyanın Aprel döyüşləri ilə bağlı jurnalistlərə verdiyi iki müsahibəsindən bəzi hissələr də nümayiş etdirilib.

O, Aprel döyüşlərindən sonra verdiyi müsahibədə “Ümumi vəziyyət nəzarət altındadır, qoşunların döyüş hazırlığı müvafiq səviyyədədir, sərhədlərimiz möhkəmdir və etibarlı əllərdədir” deyir. L. Mnatsakanyan jurnalistin “Düzdür ki, qarşı tərəf də müdafiə olunur?” sualına “Bəli” cavabını verir.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Bakı şəhərinin rayon məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin rəisi Nəsir Bayramovun “Müsahibdə barəsində danışdığınız qarşı tərəf kimdir və sizin hansı hücumdan müdafiə olunur?” sualına isə L.Mnatsakanyan konkret cavab verməyib.

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.

YENİ MÜSAVAT
N 101 (8711) 13 iyun 2025

# "Türk NATO"su üçün ilk addım - bu gün rəsmiləşir

## TDT hərbi-siyasi blokun əsası kimi səhnəyə çıxır; Azərbaycan parlamentinin qərarı ilə yeni proses başlanır - şərh

**Dünya yeni geosiyasi çalxalanmalar və siyasi yerdəyişmələr dövrünə qədəm qoyarkən köhnə müttəfiqliklər bir-bir dağılır, müharibələrin kölgəsində isə yeni güc mərkəzləri yaranır.**

Belə bir zamanda Türk Dövlətləri Təşkilatı (TDT) təkcə mədəni və iqtisadi yaxınlaşma platforması kimi yox, həm də gələcəkdə güclü bir hərbi-siyasi blokun əsası kimi səhnəyə çıxır. Bu gün türk dövlətlərinin qarşısında seçim dayanır: mədəni birlik olaraq qalmaq, yoxsa siyasi-hərbi reallığa çevrilmək. Bu seçim yalnız bir ölkənin yox, bütün bölgənin gələcəyini müəyyənləşdirəcək.

Məlumdur ki, Türk Dövlətləri Təşkilatının mülki müdafiə mexanizmi təsis ediləcək. Bu barədə Milli Məclisə qanun layihəsi daxil olub. Türk Dövlətləri Təşkilatının "mülki müdafiə mexanizminin təsis edilməsi haqqında Sazişin təsdiq edilməsi barədə" qanun layihəsi parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində müzakirə olunaraq bu gün keçiriləcək növbədənkənar iclasa tövsiyə edilib.

"Yeni Müsavat" bildirir ki, Türk Dövlətləri Təşkilatı dövlət başçılarının hələ 2023-cü ilin martın 16-da Ankarada keçirilmiş zirvə görüşündə təşkilatın Mülki Müdafiə Mexanizminin yaradılmasına qərar verilib. Bu mexanizmin yaradılması 2023-cü ilin 6 martında Türkiyədə baş vermiş dağıdıcı zəlzələlərdən sonra daha böyük aktuallıq kəsb edib. Ankarada keçirilmiş TDT 9-cu Zirvə görüşündə baş verə biləcək mümkün fəlakət və fövqəladə hallar zamanı ehtiyacların səmərəli, əlaqələndirilmiş və vaxtında həll edilməsi üçün təşkilata üzv dövlətlərin fəlakətlərin idarə edilməsi üzrə milli qurumları arasında əməkdaşlığı gücləndirmək barədə razılığa gəlinib.

TDT Zirvə görüşünün nəticələrinə dair mətbuat konfransında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan belə bir təsisatın yaradılmasını vacib hesab etdiyini, bu mexanizmin TDT ölkələrinin müvafiq qurumları arasında əməkdaşlığı daha da gücləndirəcəyini bildirib. Nəzərdə tutulan Mülki Müdafiə Mexanizminin yaradılması isə gələcəkdə bu cür fəlakət hallarının qarşısının alınmasında və nəticələrinin aradan qaldırılmasında daha çevik hərəkət etməyə imkan verəcək.

Bu mövzuda "Yeni Müsavat"a danışan **hərbi ekspert Ramil Məmmədli** bildirib ki, TDT-nin hərbi bloka çevrilməsi uzunvədəli prosesdir. Onun sözlərinə görə, Mülki Müdafiə Mexanizminin yaradılması bu yöndə ilkin addımlardan biri sayıla bilər, lakin daha çox hərbi deyil, mülki xarakter daşıyır. "Bu mexanizm üzv ölkələrin fövqəladə hallarda bir-birinə operativ dəstək verməsi üçün nəzərdə tutulan əməkdaşlıq formatıdır. Söhbət təbii fəlakətlər - zəlzələ, meşə yanğınları və




digər hallarda TDT-yə üzv dövlətlərin qarşılıqlı yardımlaşmasından gedir. Azərbaycanda bu istiqamətdə iş Fövqəladə Hallar Nazirliyinə tapşırıla bilər. Ancaq hazırkı geosiyasi qarışıqlığın içərisində TDT-nin bir hərbi alyans kimi meydana çıxması üçün bütün şərtlər hazır deyil. Əvvələ, Türkiyə özü NATO dövlətidir, ordusu bu blokda qüdrətinə görə ikinci güc hesab edilir. Həmçinin digər türk dövlətlərindən Qazaxıstanla Qırğızıstan KTMT üzvüdür. Müşahidəçi statusu olan Macarıstanın da NATO ölkəsi olduğunu nəzərdən qaçırmamalıyıq. Azərbaycan isə Qoşulmama Hərəkatının üzvüdür. Yeganə Özbəkistan qalır. Bu mənada "Türk NATO"sunun yaranması üçün geniş müzakirələrə və həlledici qərarlara ehtiyac var. Bütün hallarda bu birliyin içindən hərbi-siyasi blok çıxacağını istisna etmirəm. Yeni adıçəkilən ölkələrin digər platformalarda iştirakının TDT-nin gələcəkdə hərbi qanadının yaranmasına maneəsi olmamalıdır".

**Hərbi təhlilçinin fikrincə, KTMT özünün qürub çağını yaşamaqdadır, NATO isə ABŞ olmadan böyük müdafiə bloku ola bilməz:** "Ukrayna böhranı Şimali Atlantika Alyansının monolitliyini eksperimentdən çıxardı. Eyni zamanda onun hərbi potensialını nümayiş etdirdi. Bu blokda elə üzv ölkələr var ki, onların hərbi imkanları olduqca aşağıdır. Onlar ciddi təhdidlə üz-üzə qalanda, alyans dəstək verməsə, müdafiə oluna bilməzlər. Bu reallıq da Türk dünyasının yüksəlişi üçün yeni fürsət pəncərələri açır. Əgər bu birliyi inkişaf etdirməkdə prinsipiallıq və qətiyyət sona qədər davam etdirilərsə, gələcəkdə TDT-nin hərbi-siyasi blok kimi meydana çıxması mümkündür. Amma buna qısqanclıqla yanaşan güc mərkəzlərinin olacağı şək-şübhə doğurmur. Hərçənd belə bir blok heç də NATO və ya KTMT əleyhinə yönəlməyib. Bu, müdafiə xarakterli güc ola bilər. İndiki mərhələdə isə yeni mexanizm növbəti addımlardan biri kimi qiymətləndirilməlidir. Azərbaycanın ardınca digər üzv ölkələrin parlamentlərinin də analoji qərarı verməsi zəruridir. Ümumiyyətlə, biz böyük bir coğrafi ərazini əhatə edirik, üzv ölkələrdə müsbət demoqrafik dinamika müşahidə olunur, hərbi potensialımız döyüş meydanlarında özünü dəfələrlə sübut edib. Zəngin təbii sərvətlər, onların çatdırılması üçün müasir infrastruktur, Orta Asiya və Qafqazı Aralıq dənizi və Qara dəniz limanları ilə birləşdirən nəqliyyat dəhlizləri, zəngin və qədim tarix və mədəniyyət bizim ən böyük sərvətimizdir. Niyə də bu potensialdan, resurslardan istifadə etməklə böyük güc olaraq dünyaya çıxmayaq?!"

Qeyd edək ki, Türk Dövlətləri Təşkilatının yaranma tarixi 2009-cu ilə təsadüf edir və təşkilatın ilkin məqsədi türk dövlətləri arasında müxtəlif sahələrdə əməkdaşlığı gücləndirməkdir. Bu təşkilatın yaranması, həm tarixi kökləri, həm də müasir dövrdəki siyasi və iqtisadi reallıqları nəzərə alaraq, Türk dünyasının potensialını daha səmərəli istifadə etməyi hədəfləyir. Türk Dövlətləri Təşkilatı, həm də hərbi əməkdaşlıq və təhlükəsizlik sahəsində üzv dövlətlər arasında koordinasiyanı təmin edir. Ortaq hərbi təlimlər və təhlükəsizlik strategiyaları regionun stabilliyinə və üzv dövlətlərin müdafiə qabiliyyətinin artırılmasına xidmət edir. Bu sahədə həyata keçirilən tədbirlər Türk dünyasının qlobal güc olaraq nüfuzunu daha da artırır.

TDT-nin strukturu müxtəlif idarəetmə orqanlarından ibarətdir. Təşkilatın ən yüksək qərar qəbul edən orqanı Dövlət Başçıları Şurasıdır. Bu şura, üzv dövlətlərin prezidentlərinin iştirakı ilə ildə bir dəfə keçirilir və əsas strateji qərarları qəbul edir. Bundan əlavə, Xarici İşlər Nazirləri Şurası, Yüksək Səviyyəli Məmurlar Komitəsi və Katiblik kimi digər idarəetmə orqanları da mövcuddur. Hazırda Türk Dövlətləri Təşkilatının üzv dövlətləri Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistandır. Türkmənistan isə müşahidəçi statusuna malikdir. Bu dövlətlər arasında əməkdaşlıq, müxtəlif sahələrdə, xüsusən də siyasi, iqtisadi və hərbi sahələrdə inkişaf edir.

**Emil SALAMOĞLU, "Yeni Müsavat"**



# Şuşa Bəyannaməsinn 4-cü ildönümü

**"Dörd il öncə, 2021-ci il iyunun 15-də qədim Azərbaycan şəhərində - Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanan tarixi Şuşa Bəyannaməsi Azərbaycan tarixinin ən mühüm səhifələrindən biridir. Bu, Qars müqaviləsindən sonra tarixi və həyati əhəmiyyət daşıyan bir sənəd idi. Qars müqaviləsindən yüz il sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə bəyannamə bizim gələcək işbirliyimizin istiqamətini göstərir. Şuşa Bəyannaməsi 44 günlük müharibədən sonra regionda yeni geosiyasi reallıqlar çərçivəsində Azərbaycanın formalaşdırdığı regional təhlükəsizlik sisteminin ən önəmli hissəsidir".**

"Yeni Müsavat" xəbər verir ki, bu fikirləri Şuşa Bəyannaməsinin 4-cü ildönümü ərəfəsində Böyük Qurtuluş Partiyasının başqanı, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa deyib.

Partiya rəhbəri qeyd edib ki, Şuşa Bəyannaməsi Azərbaycanın təhlükəsizliyi baxımından yeni dövrün başlanğıcı sayıla bilər. XX əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyəti qurulan zaman Türkiyə ən çətin şərtlərdə bizə necə dəstək vermişdisə, bu gün də öz təsirini regionda daha çox göstərməyə başlayıb. Qarşılıqlı olaraq Azərbaycanın və Türkiyənin təhlükəsizliyinə təminat verən bu sənədi yeni bir dövrün başlanğıcı hesab etmək olar.

**Şuşa Bəyannaməsindən sonra Azərbaycan və Türkiyə qardaşlığının daha da möhkəmləndiyini vurğulayan deputat deyib:** "Bu sənəddən öncə müxtəlif sahələrdə əməkdaşlıq olsa da, Türkiyə-Azərbaycan əlaqələri bəyannamə ilə real məzmun kəsb etməyə başladı. Şuşa Bəyannaməsi təkcə qardaşlığımızın bir nümunəsi deyil, həm də bölgənin yenidən dizayn olunması üçün qarşımıza çıxan fürsətdir ki, bunu da özümüz yaratmışıq. İşğaldan azad olunan ərazilərdə qurulan infrastruktur və investisiya layihələrində Türkiyə şirkətlərinin önəmli rol alması həm də bizim qardaşlarımıza olan münasibətimizdir. Bu amil onunla izah olunur ki, bizim Türkiyədən başqa modelimiz yoxdur. Biz bundan sonra da birlikdə güclənəcək, eyni zamanda Şuşa Bəyannaməsinin müddəalarının hamısını da tətbiq edərək qarşımızda olan problemləri birlikdə həll edəcəyik".

# TÜRKPA-ya sədrlik Azərbaycandan bu ölkəyə keçdi

**Türk Dövlətləri Parlament Assambleyasına (TÜRKPA) sədrlik Azərbaycandan Qazaxıstana keçib. Bu barədə TÜRKPA Şurasının Astanada keçirilən 14-cü iclasında qərar qəbul edilib.**

Belə ki, Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarova sədrliyi qazaxıstanlı həmkarına təhvil verib.

# Azərbaycanlı və gürcü hərbi tibb mütəxəssisləri bir arada

**Bakıda Azərbaycan və Gürcüstan respublikaları müdafiə nazirliklərinin tibb xidməti nümayəndələri arasında "Hərbi tibb sahəsində əməkdaşlıq" üzrə ikitərəfli görüş keçirilib. Bu barədə Müdafiə Nazirliyinin məlumatında bildirilib.**

Qeyd edilib ki, görüşdə Gürcüstan nümayəndə heyətinə Azərbaycan Ordusunda tibb xidmətinin təşkili, eləcə də hərbi tibbi təchizatla bağlı brifinq təqdim olunub.

Hər iki ölkənin nümayəndə heyəti hərbi tibb sahəsində əməkdaşlıq, həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparıb.

Görüş çərçivəsində qonaqlar, həmçinin Müdafiə Nazirliyinin Baş Klinik Hospitalını, Mərkəzi Hərbi və Stomatoloji poliklinikalarını, Hərbi Tibb Fakültəsini, Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Mərkəzini və İstirahət evini ziyarət ediblər.

Yeni MÜSAVAT
N 101 (8711) 13 iyun 2025

# "Ağcaqayın yarpağı" ölkəsi Bakı ilə barışır

## Kanadalı və azərbaycanlı diplomatların görüşündə gərginlikdən çəkinmək diqqətə çatdırılıb; ermənipərəst rəsmi Ottava ilə bu danışıqlar müzakirə kimi qalacaq, yoxsa...



**Bakıda Azərbaycan və Kanada xarici işlər nazirlikləri arasında ilk siyasi məsləhətləşmələr keçirilib. "Yeni Müsavat"ın xəbərinə görə, bu barədə Azərbaycan XİN məlumat yayıb. Bildirilib ki, Azərbaycan nümayəndə heyətinə XİN-in Amerika İdarəsinin rəisi Esmira Cəfərova, Kanada nümayəndə heyətinə isə XİN-in Şərqi Avropa və Avrasiya Departamentinin icraçı direktoru Andreas Veyçert rəhbərlik edib.**

Məsləhətləşmələr zamanı iki ölkə arasında siyasi əlaqələrin inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb, davamlı siyasi dialoqun təşviqi məqsədilə qarşılıqlı səfərlər və beynəlxalq tədbirlər çərçivəsində təmasların önəmi vurğulanıb. İkitərəfli münasibətlərdə gərginlik yaradan məqamlardan və addımlardan çəkinilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

İqtisadi sahədə əməkdaşlıq kontekstində ikitərəfli ticarət dövriyyəsinin artırılması, habelə enerji, nəqliyyat, yüksək texnologiyalar və digər sahələrdə birgə layihələrin həyata keçirilməsi imkanları müzakirə edilib. Azərbaycanın təşəbbüskarı və fəal iştirakçısı olduğu mühüm enerji, nəqliyyat və logistika layihələrinin reallaşdırılmasında ölkəmizin strateji rolu yüksək qiymətləndirilib. Eyni zamanda təhsil, mədəniyyət, turizm sahələrində əməkdaşlığın xalqlararası əlaqələrin gücləndirilməsinə önəmli töhfə verəcəyi qeyd olunub.

Görüşdə həmçinin postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, Ermənistan-Azərbaycan normallaşma prosesi və bu prosesə mane olan amillər, davamlı sülhün təmin edilməsi istiqamətində Azərbaycan tərəfindən atılan addımlar barədə məlumat verilib.

Məlum olduğu kimi, Kanada son illərdə aktiv ermənipərəst siyasət yürüdür və kanadalıların Ermənistana ayaq açmaları da Paşinyanın iqtidara gəlişindən sonraya təsadüf edir. Kanada həm də Aİ-nin Ermənistandakı missiyasına (EUMA) qoşulan yeganə qeyri-Avropa ölkəsidir. Bundan əlavə, Kanada nüvəsində Parisin dayandığı və fransız dilinin rəsmi dil olduğu, yaxud əhalisinin önəmli qisminin fransızca danışdığı, Fransa mədəniyyəti ilə tam və ya müəyyən bağlılığı olan ölkələri birləşdirən Beynəlxalq Frankofoniya Təşkilatının üzvüdür. Eyni zamanda Ermənistan da həmin təşkilatda təmsil olunur. Ermənistan Beynəlxalq Frankofoniya Təşkilatının fransızdilli ölkə olmayan yeganə üzvüdür. Kanadanın adı gələndə istər-istəməz bu ölkənin 44 günlük Vətən müharibəsindəki xoşagəlməz addımları yada düşür.

Rəsmi Ottava müharibə zamanı Azərbaycanın işğalçı Ermənistan ordusuna qarşı "Bayraktar TB2" pilotsuz uçuş aparatlarından (PUA) istifadə etməsinə görə 2020-ci ilin oktyabrında Türkiyəyə müdafiə sənayesi məhsullarının ixracına embarqo tətbiq etmişdi. Bundan əlavə, Vətən müharibəsi zamanı Kanadanın xarici işlər naziri olmuş Fransua-Filipp Şampan Azərbaycanı ittiham edən bəyanatlar vermişdi. Kanadanın ermənipərəst mövqeyi Azərbaycanda zaman-zaman etiraza səbəb olub. Bununla bağlı onu da qeyd edək ki, Kanada özü etnik separatizmdən əziyyət çəkən ölkədir. Kvebek əyalətində vaxtaşırı separatizm meylləri baş qaldırır.

Bəs bu görüşdən sonra münasibətlər necə inkişaf edəcək? Kanadanın yeni hakimiyyəti ilə siyasi məsləhətləşmələr müzakirə olaraq qalacaq, yoxsa Azərbaycan həqiqətləri axır ki, "ağcaqayın yarpağı ölkəsi"nə də çatacaq? Yəni rəsmi Ottava ermənipərəst siyasətindən əl çəkəcəkmi?

Yeri gəlmişkən, Kanadanın Ermənistana dəstəyi xüsusilə Nikol Paşinyanın hakimiyyətə yiyələnməsindən sonra artıb. Məsələn, Robert Köçəryanın, Serj Sərkisyanın hakimiyyətdə olduqları dövrdə Kanada-Ermənistan əlaqələri indiki kimi deyildi. Əlaqələrin inkişafında, Kanadanın bugünkü ermənipərəstliyində Fransa amilinin mühüm rolu var. Hətta bir neçə il əvvəl Kanada Senatında Qarabağdakı keçmiş qondarma rejimin müstəqilliyinin tanınması barədə təşəbbüs olmuşdu, sonra rədd edildi.

**Siyasi ekspert Züriyə Qarayevanın "Yeni Müsavat"a bildirdiyinə görə, Kanadadan az əvvəl Niderland da Azərbaycanla gərginliyin aradan qaldırılması istiqamətində addım atmışdı:** "Bu Avropa ölkəsinin ermənipərəst addımlarını, qətnamələrini yaxşı xatırlayırıq. Ardınca niderlandlı diplomatlar Bakıya gəldi, müzakirələr aparıldı, barışıq istiqamətində addım atıldı. Yəni Azərbaycan heç zaman qərəzli siyasət yürütmür, bizə qarşı əsassız ittihamlar səsləndirilir. İndi də Kanada nümayəndələri ilə Bakıda görüş olub. Elə rəsmi məlumatda da deyilir ki, "ikitərəfli münasibətlərdə gərginlik yaradan məqamlardan və addımlardan çəkinilməsinin əhəmiyyəti diqqətə çatdırılıb". Deməli, görüşün əsas məğzi, leytmotivi bundan ibarətdir. Lakin burada da gərginliyə səbəb olacaq addımları rəsmi Bakı atmayıb. Kanadanın dəfələrlə ermənipərəst mövqeyi ilə qarşılaşmışıq. Bu ölkənin xarici işlər naziri Melani Coninin səsləndirdiyi fikirləri yaxşı xatırlayırıq. O baxımdan ümid edək ki, bu görüş irəliyə doğru mühüm addım olacaq. Sadəcə, Kanada Avropa İttifaqının üzvü olmadığı halda, Ermənistanla sərhəddə yerləşən "casus missiyası"nın tərkibində iştirak edir. Halbuki Kanada NATO üzvüdür. Deməli, NATO missiyası sərhədimizə gəlib. Hətta Rusiya rəsmisi Mariya Zaxarova bu günlərdə yenidən "casus şəbəkəsi"nin fəaliyyətinə toxundu və Azərbaycanın narahatlıqlarının əsaslı olduğunu vurğuladı. Əgər Kanada münasibətlərdə səmimidirsə, ilk addım olaraq "mülki missiya"da fəaliyyətinə son qoysun".

**Siyasi təhlilçi hesab edir ki, Azərbaycan yeni reallıqlar yaradıb və bunu Kanada kimi ölkələr yavaş-yavaş qəbul etməyə başlayırlar:** "Onlar anlayırlar ki, təzyiq göstərmək, ittiham etməklə hansısa məqsədlərinə çata bilməyəcəklər, yaxud Ermənistana köməyi dəyməyəcək. İrəvanın tək qurtuluş yolu Azərbaycanın tələblərini icra etməklə yekun sülh sənədi imzalamaqdır. Bunu ermənipərəst siyasət yürüdən Kanada, Niderland kimi ölkələr dərk etməkdədirlər. Onlar Azərbaycanın gücünü, müttəfiqlərini, regiondakı mövqeyimizi qiymətləndirməyə başlayıblar. Habelə Tramp administrasiyası Paşinyan iqtidarına Bayden kimi açıq dəstək vermir. Kanada hökuməti bu fərqi də görməkdədir".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

## Paşinyandan Qareginə: "Bunda azərbaycanlı izi axtarmaq..."



**"Bəziləri Erməni Apostol Kilsəsinin ikiüzlülərin və fariseylərin əsarətindən azad edilməsi prosesində türk və ya azərbaycanlı izi görməyə çalışır". Teleqraf xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan sosial şəbəkədəki səhifəsində yazıb.**

Ermənistan hökumətinin rəhbəri bu yanaşmanın doğru olmadığını bildirib: "Bəziləri erməni Apostol kilsəsinin ikiüzlülərin və fariseylərin əsarətindən azad edilməsi prosesində türk və ya azərbaycanlı izi görməyə çalışır. Bu, öz çirkinliklərini erməni ictimaiyyətindən gizlətmək üçün "azərbaycanlı" və ya "türk" arqumentlərindən istifadə edəndə ikiüzlülüyün ən birbaşa ifadəsidir. Bu üsuldan istifadə edənlər, o cümlədən xarici qüvvələr onlara istənilən sağlam diskursu pozmağa, istənilən islahatı dayandırmağa və erməni Apostol kilsəsini indiki kimi çıxılmaz vəziyyətdə saxlamağa imkan verir.

Ktriç Nersisyan (bütün ermənilərin katolikosu II Qareginin əsl adı - red.) və onun kimi müqəddəs kilsəmizi ləkələyənlər Ermənistan və erməni Apostol kilsəsinin çiçəklənməsini istəməyən istənilən qüvvəyə hədiyyədir. Bəziləri Ktriç Nersisyanı müdafiə edir. Nəyi müdafiə edirsən, kimi müdafiə edirsən? Yalanı, saxtakarlığı, çirkinliyi? Bu yolla özünüzü müdafiə edirsiniz və heç bir şansınız yoxdur. Erməni Apostol kilsəsi İsa Məsihə və erməni xalqına qaytarılacaq. Ktriç Nersisyan taxtı boşaltmalıdır".

Paşinyan yeni katolikos üçün namizədinin olmadığını da sözlərinə əlavə edib: "Çoxları iddia edir ki, mənim yeni katolikos üçün namizədim var. Təəssüf ki, katolikosluğa namizədim yoxdur. Amma mənim katolikosun necə olduğu barədə təsəvvürüm var: Tanrıya inanan, fırıldaqçı olmayan, İsa Məsihin davamçısı, kilsəyə xidmət edən, "mömin və ruhanilik" pərdəsi altında gizlənməyən biri. Bizim dindar və Tanrıdan qorxan bir katolikosumuz olacaq".

## Rusiyanın Bakıdakı səfirindən ilginc açıqlama: "Hazırıq!"


Mixail Yevdokimov

**"Moskva Cənubi Qafqazda sülhü dəstəkləyir və Bakı ilə İrəvan arasında münasibətlərin normallaşmasına kömək etməyə hazırdır". Yenisabah.az Baku TV-yə istinadla xəbər verir ki, bunu Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimov deyib.**

O bildirib: "Rusiya üçün Cənubi Qafqazda sülhün olması çox vacibdir. İlham Əliyevin müdrikliyi və onun Vladimir Putinlə münasibətləri sayəsində indi bu sülh bərpa olunub".

Səfirin sözlərinə görə, Moskva Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin mətni üzrə əldə edilmiş razılaşmanı alqışlayır və ölkələr arasında normallaşma prosesinin davam etdirilməsində maraqlıdır. Yevdokimov qeyd edib ki, Rusiya Azərbaycan və Ermənistan arasında nəqliyyat marşrutlarının inkişafı və sərhədlərin delimitasiyasının davam etdirilməsi üçün bütün səyləri icra etməyə hazırdır.

O vurğulayıb ki, Bakı və Moskva arasında münasibətlər aktiv inkişaf edir və iki ölkə prezidentinin ötən il 4 dəfə görüşməsi bunu isbatlayır. Putin Azərbaycana dövlət səfəri edib, baş nazirlər 3 görüş keçirib, Şahin Mustafayev və Aleksey Overçuk timsalında baş nazir müavinlərinin təmasları olub. Diplomat əlavə edib ki, Rusiya və Azərbaycanın müttəfiqlik münasibətlərinin inkişafı üçün böyük potensialı var.

YENİ MÜSAVAT
N 101 (8711) 13 iyun 2025



# ABŞ-da yaşayan azərbaycanlı politoloq aksiyalardan danışdı

## Ərəstun Oruclu: "Əsas versiya ondan ibarətdir ki, bunu edən Tramp deyil, onun komandasının arxasındakı böyük şirkətlərdir"

**Kaliforniyanın Los-Anceles şəhərində kütləvi etiraz aksiyaları günlərdir davam edir. Qeyri-qanuni miqrantların saxlanmasına qarşı keçirilən nümayişlər polislə toqquşmalara və yerli hakimiyyət orqanlarının qarşısını ala bilmədiyi iğtişaşlara çevrilib.**

Baş verənlərlə bağlı Ayna.az-ın suallarını cavablandıran **"Şərq-Qərb" Strateji Araşdırmalar Mərkəzinin rəhbəri, Amerikada yaşayan azərbaycanlı politoloq Ərəstun Oruclu** deyib ki, Kaliforniyada baş verənlərin səbəbi odur ki, Trampın deportasiya siyasəti çox eybəcər formada həyata keçirilir: Faktiki olaraq, insanları maskalı adamlar heç bir xəbərdarlıq etmədən, hətta bəzən özünü təqdim etmədən saxlayırlar və hara gəldi aparırlar - müxtəlif ölkələrə, o cümlədən El-Salvadorda qatı cinayətkarların, terrorçuların, narkomanların saxlanılması üçün nəzərdə tutulmuş həbsxanaya. Bu, dünyada ən böyük və ən amansız qaydaları olan həbsxanadır. Təbii ki, buna insanlar etiraz edirlər, xüsusilə də cənub ştatlarda. Məsələ burasındadır ki, ABŞ-ın cənub ştatları əvvəllər Meksikanın tərkibində olub. Kaliforniya da, Texas da, Florida da tarixən Meksikaya aid olub və oranın əhalisinin böyük hissəsi Meksika əsillidir. Bu ştatlara gələn mühacirlərin bir hissəsi də artıq illərdir ABŞ vətəndaşı olan insanların qohumlarıdır. Belə şəraitdə, əlbəttə, Trampın eybəcər formada həyata keçirdiyi deportasiya siyasətinə etirazlar olmalı idi və başladı. O başqa məsələdir ki, etirazlar təbii yolla baş verdi, yoxsa hökumət davranışları ilə insanları buna sövq etdi? Burada amerikalı, britaniyalı ekspertlərin, tanınmış siyasətçilərin, hətta hakim Respublikaçılar Partiyasının üzvü olmuş keçmiş konqresmenlərin çox maraqlı mövqeləri var. Məlumdur ki, Kaliforniya ABŞ-ın ən böyük ştatıdır. Dünya iqtisadiyyatında öz iqtisadiyyatının həcminə görə Kaliforniya altıncı yeri tutur. Bu, ciddi göstəricidir. Və ənənəvi olaraq, Kaliforniya hər zaman demokrat ştat olub. Hətta son prezident seçkilərində demokratların düşərgəsindən bir çoxları bildirirdilər ki, məhz indiki qubernator Qevin Neusomun namizədliyini irəli sürmək lazımdır. Çünki kifayət qədər populyar şəxsdir və Kaliforniyada qubernator seçilmiş şəxsin prezident seçkilərində şansları kifayət qədər yüksəkdir. Ekspertlərin bir hissəsi hesab edir ki, Tramp Neusomu gələcək seçkilərdə sıradan çıxarmaq üçün belə təxribatçı addım atdı. Digər kəsimin versiyası ondan ibarətdir ki, əslində bunu edən Tramp deyil, Trampın komandasında arxasında böyük şirkətlərin sahiblərinin, milyarderlərin durduğu şəxslərdir. Məqsəd də ABŞ-da real iqtisadi hakimiyyətin həmin böyük texnoloji şirkətlərin əlinə keçməsi üçün qurulan plandır. Əlbəttə, bu iddialar bir qədər konspiroloji görünə bilər, amma hər halda, bu variantların hər birinin öz izahı var.



Trampın immiqrasiya ilə bağlı siyasətinə gəlincə, bu siyasət əslində həmişə olub. Demokratlar da eyni addımları atırdılar. Məsələn, Barak Obama ABŞ prezidenti olarkən Trampdan daha çox insan deportasiya edib. Amma bunu elə şəkildə edib ki, etirazlara səbəb olmayıb. Tramp deportasiyanı respublikaçıların daha çox olduğu ştatlarda, məsələn, Arizonada, Yeni Meksikada, Texasda etsəydi, bəlkə də bu effekt olmazdı. Amma məhz demokrat ştatda bu addımları atmaq qıcıq yaratdı. Hər halda, hazırda prosesin arxasındakı əsl səbəb görünmür".

**"Baş verənlərin arxasında Rusiyanın rolunun olması mümkündürmü" sualına politoloq belə cavab verib:** "Rusiya izi məsələsinə spektik yanaşıram. Əlbəttə, Rusiyanın proseslərdə müəyyən iştirakı ola bilər. Lakin hər bir halda Rusiya bu prosesləri Amerika daxilindəki hansısa siyasi qrupun, oliqarxiyanın vasitəsilə edə bilər. Yəni Rusiyanın birbaşa Amerika daxilində belə geniş prosesə başlaması inandırıcı deyil. Birincisi, bunun üçün Rusiyanın resursları yetərli deyil. İkincisi, Trampın Rusiyaya loyal münasibətinə baxmayaraq, ABŞ-ın istər təhlükəsizlik, istərsə də hüquq-mühafizə orqanları olsun, onlar Rusiyanın əsas rəqib olduğunu bilirlər. Ona görə də Moskvanın addımlarını zərərsizləşdirmək istiqamətində ayıq xidmət göstərirlər. Bu mənada, Rusiya ABŞ daxilində belə bir prosesi başlada bilməz. Təbii ki, müəyyən məsələlərə Rusiya kimlərinsə vasitəsilə təsir göstərə bilər ki, bu da həlledici deyil..."

❑ **"Yeni Müsavat"**

# Los-Ancelesdə SSRİ bayrağı - Bakıdan baxış

## Partiya funksionerlərinə görə, bu, Trampın "Putinin adamı" olmasına, Amerikanın SSRİ kimi dağılmasına işarə ola bilər...




**Artıq bir neçə gündür ki, Kaliforniyanın Los-Anceles şəhərində kütləvi iğtişaşlar başlayıb. Qeyri-qanuni mühacirlərin saxlanmasına qarşı keçirilən nümayişlər tez bir zamanda polislə toqquşmalara və yerli hakimiyyət orqanlarının qarşısını ala bilmədiyi iğtişaşlara çevrilib. Belə bir şəraitdə ABŞ Prezidenti Donald Tramp Milli Qvardiyanın şəhərə yeridildiyini elan edərək, baş verənləri qanuna və suverenliyə zidd iğtişaş adlandırıb.**

Kaliforniya ştatında kütləvi etirazlara səbəb immiqrasiya siyasətinin sərtləşdirilməsi olub.

Qeyd edək ki, Los-Ancelesin əhalisinin üçdə biri miqrantdır. Etirazlarda hüquq müdafiəçiləri ilə yanaşı, Meksika və ABŞ-da fəaliyyət göstərən solçu radikal "Union del Barrio" qrupu da iştirak edib. Bunlar radikal üsullardan istifadə edərək Latın Amerikasından olanların hüquqları üçün mübarizə aparanlardır. Aksiya iştirakçıları arasında SSRİ bayrağı qaldıranlar da olub.

**Rusiyalı politoloq Pavel Dubravski deyib ki, etirazların arxasında mütəşəkkil strukturlar dayanır:** "Bunlar sol radikal qruplar və ya "Union del Barrio" ola bilər. Stil çox bənzəyir: kimsə polisə hücum edir və yenidən izdihamın arasında yox olur. Polis onu çıxarmağa çalışır və bu, başqalarına qarşı təcavüzə səbəb olur".

Ağ Ev etirazları milli təhlükəsizliyə təhdid hesab edir. Tramp da öz növbəsində vurğulayıb ki, əsas təhlükə miqrantların özləri deyil, iğtişaşları təşkil edən radikal sol qruplardır: "Təhrikçilər tərəfindən təşkil edilən və tez-tez fitnəkarlar tərəfindən həyata keçirilən bu cür solçu radikal etirazlara icazə verilməyəcək".

Aksiyalar nə ilə nəticələnəcək?

**Demokratik Maarifçilik Partiyasının sədri, deputat Elşən Musayev** "Yeni Müsavat"a açıqlamasında Ağ Evin sahibinin hələ seçki kampaniyası vaxtı verdiyi vədi indi həyata keçirdiyini bildirdi: "Əvvəla, Tramp hələ seçki təbliğatı vaxtı söyləmişdi ki, əgər hakimiyyətə gələrsə, immiqrasiya siyasətini sərtləşdirəcək. Yəni hazırkı gedişat, müşahidə edilən proses əslində gözlənilən idi və heç şübhəsiz ki, ABŞ Prezidentinin bununla bağlı öz əsaslandırmaları var. Sadəcə, məsələ burasındadır ki, Los-Anceles əhalisinin az qala üçdə biri miqrantlardan ibarətdir və sırf bu səbəbdən məlum icraat bir tək etirazlara deyil, həm də idarəçiliklə bağlı ciddi problemlərə gətirib çıxara bilər. Fikrimi daha dəqiq ifadə edim: Həmin miqrantlar həm də əmək qüvvəsidir, işçidir, vergi ödəyicisidir və ona görə də mövcud siyasət yürüdülərkən bəzi məqamlar mütləq nəzərə alınmalı idi. Təsəvvür edin ki, 7 saat ərzində 46 nəfər həbs olunub və yaqin ki, bunun yüz qatı qədər insana da xüsusi xəbərdarlıq edilib, eyni zamanda ölkədən çıxışla bağlı vaxt qoyulub. Həmin insanların içində isə bütün həyatını, ümidlərini, özünün və ailəsinin gələcəyini bu ştatla bağlayanlar var. Və onların öz yaşadığı məkandan uzaqlaşması, uzaqlaşdırılması təxminən intihara bərabər bir şeydir. Ümumiyyətlə, dünya praktikasında belə bir nümunə var ki, əgər ölkədə miqrant siyasəti bənzər şəkildə sərtləşdirilirsə, bu siyasət əsasən məlum qərardan sonrakı dövrə aid edilir və köhnələrə dəyilmir. Ya da bəlli kateqoriyalar müəyyənləşir. Amma bütün hallarda ABŞ-ın siyasəti necə, hansı formada yürütməsi, yürüdəcəyi onun öz daxili işidir və bu səbəbdən də bizə məsələni təftiş yox, sadəcə müzakirə etmək düşər".

**Ədalət, Hüquq və Demokratiya Partiyası sədrinin müavini, politoloq Niyaməddin Orduxanlı isə qeyd etdi ki, Tramp avtoritar idarəetməyə üstünlük verir:** "ABŞ-da tam müstəqil olmasa da, məhkəmə hakimiyyəti, qismən azad media, xalqın iradəsi ilə formalaşan Konqres, vətəndaş cəmiyyəti institutları, müxalifət var. ABŞ həm də federal dövlətdir, ştatlar, federasiyanın subyektləri geniş səlahiyyətlərə malikdir. Ona görə Trampın onları ram etməsi çətin olacaq. İmpulsiv, qanunlara çox da hörmət etməyən və Putinin adamı sayılan Tramp vəzifədə qalmaqda davam edərsə, ABŞ-ı yenidən böyük olmaq yox, yox olmaq təhlükəsi gözləyir. ABŞ-ın çöküşündən bütün dünya əziyyət çəkə bilər. Kaliforniyanın Los-Anceles şəhərində kütləvi iğtişaşlar keçirilməsinə gəldikdə isə bu, Trampın qeyri-qanuni mühacirlərə elan etdiyi müharibədir. Bu, uzun illər ABŞ-a gəlib yaşayan, işləyən, ev-eşik sahib olan yüz minlərlə insanın hər şeyini əlindən almaq deməkdir. Tək Los-Ancelesdə 1 milyondan artıq miqrant var. Bu adamların artıq itirəcəyi heç nə yoxdur. Ona görə də tez bir zamanda polislə toqquşmalara və yerli hakimiyyət orqanlarının qarşısını ala bilmədiyi iğtişaşlara çevrildi. Bu cür addımları ilə Tramp cəmiyyətdə yaranmış mənfi imicini dəyişdirmək istəyir. Hətta ordu qüvvələrini cəlb etməklə, qətiyyətli prezident olduğunu göstərmək istəyir. Aksiyada SSRİ bayrağı təsadüf ola bilməz. Burada mesaj verilmiş olur. Trampın Putinin adamı olduğunu nümayiş etdirmək istəyirlər. Həm də demək istəyirlər ki, Amerika da SSRİ kimi dağıla, məhv ola bilər.

Tramp miqrantlara qarşı kəskin qərarlarından geri çəkilməsə, bu daha geniş və bütün ştatlara sirayət edən kütləvi aksiyalara gətirib çıxaracaq. İdarə olunmaz iğtişaşlar, talançılıq, ordu qüvvələri ilə aksiyaçılar arasında savaş başlayacaq. Xeyli sayda insan ölümünə səbəb ola bilər. Nəzərdən qaçırmayaq ki, Amerikada uzun illərdir silah satışı açıq formada davam edir. Onun üçün də unutmayaq ki, aksiyaçılar arasından da silahdan istifadə halları baş verə bilər".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 101 (8711) 13 iyun 2025



# İşığa baxmaq pullu olsun

Zamin HACI
zaminhaci@gmail.com

"Qaşların tağinə versəm dil-i suzan, nə əcəb,
Rəsmdir asıla qəndil nəzərgahlərə"
(Füzuli)

**Öncə zəhmətkeşlərimizə bir xəbərdarlıq etmək istəyirəm: bu yazı çıxan gün ayın 13-ü və cümə günü olacaqdır, ehtiyatlı olun. Çünki dərin alimlərin rəyinə görə əgər ayın 13-ü cüməyə düşürsə, bu, çox nəhs təqvim hadisəsidir. Belə günlərdə şeytan zəncirdən qırılıb xalqı ovsunlayır, cinlər vətəndaşları tora salır, qulyabanılar başımız üstdə yallı gedirlər.**

Lazımdır ki, cümə 13-nə düşəndə mollaya gedib 9-cu fələk qatının duasını yazdırıb yaxanızdan asasınız. Həmçinin son illərin təcrübəsi göstərir ki, bu tarixdə lədun elminin bilicilərindən Müşfiq Fəndgirin "Toyuq budu və əhli-zənən-şəyatini-məxluqat" traktatından orta vərəqlərdən birini qoparıb 95 dərəcəli suda qaynadaraq səhər-günorta-axşam 50 qram istemal eləmək məkruhdur.

İndi keçək gündəmə. Şükür olsun, artıq gündəmimizə gün dəyməyə başlamışdır, yoxsa az qalırdı iyun ərzində günəş üzünə həsrət qalaq. Çox gündəyməz bir gündəm idi. Yaqin burada şanlı hökumətimizin cahanşümul fəaliyyətinin təsiri çoxdur, elə təzəlikcə əlaqədar orqanlardan aldığımız məlumata görə, yay fəsli ana yurdumuz çiçəklənən Azərbaycana iyunun 21-i saat 06:42:11-də daxil olacaq. Saniyəsinəcən bilirlər. Ona görə Günəş müəyyən xəcalət çəkdi, buludlar arasından çıxmaq qərarına gəldi. Təşəkkür edirik. Həm hökumətə, həm Günəşə. Prinsipcə, ikisi də bizim üçün eynidir.

Günəş demişkən, hökumət təzə qanun çıxarır, elektrik enerjisi və qaz üzrə sabit tarif qoyacaqlar. İşığı yandırdın-yandırmadın, həmin pulu ödəyəcəksən. Deyir biz zəhmət çəkib evlərə tok xətti çəkirik, boru-filan uzadırıq, canın çıxsın işıq yandır. Evdə olmayanda qazı açıq qoy, pul yazsın. Bizə nə dəxli var? Boru müftədir bəyəm?! Dünyanın heç yerində xalqa müftə boru uzadılmır.

Əladır. Növbəti addım kimi, işığa baxmaq ödənişli olsa alqışlayarıq. Hələ bəziləri utanmadan, müftə şəkildə "o işıq haqqı" deyə and içirlər. Haqqını vermədiyin işığa and içmək təxminən əməl eləmədiyin qanuna and içmək kimidir.

Su, zibil, bələdiyyə seçkiləri, icra başçısının qəbuluna yazılmaq və sairə də sabit tarifli olmalıdır. Divanda uzanıb qarnını qaşımaq sabit tariflə, ödənişi olsun. Çünki bunlar hamısı sabitliyin əsəridir. Sabit tarif bunun üçün olmalıdır.

Daha bir möhtəşəm qərar verilib, avtobus xəttinə minik maşını ilə girib adam düşürtməyə və mindirməyə artıq icazə vardır!

Xüsusi yerlər ayrılacaq. Yoxsa həqiqətən çətin günlər yaşayırdıq. Elə adam var keçən il evdən çıxıb, küçədə düşməyə yer tapmadığı üçün maşında qalır. Həftədə 1 dəfə şəhər kənarında arvad-uşağı ilə görüşə icazə verilir, çünki yalnız orada maşından düşmək mümkün imiş.

Şükür, bu problemimiz də qansız-qadasız həll olundu. İnşallah, gələn Qurban bayramında bunu həll edənlərə qurban kəsmək millətin borcudur. Hətta daha kəskin çıxsa da, yazıram: boynunun borcudur!

Ancaq bəzi siyasi-sosial, geopolitik-inzibati məsələlərin həlli üçün dövlət proqramlarının hazırlanması gecikir. Bəlkə də gecikmir, üzr istəyirəm, mən hesab edirəm gecikir. Ümid edirəm buna görə xalqın nifrətini qazanmaram.

Həmin məsələlərdən biri toyda mahnı sifarişlərinin tənzimlənməsi, bu sahədə müvafiq qayda-qanun yaradılmasıdır. Mən uşaq vaxtımdan xatırlayıram, bizim hər bir toyda mütləq dava düşürdü, əsasən də mahnı sifarişi, oynamaq növbəsi üstündə. Qarabağ problemi həll olundu, lakin toyda mahnı sifarişi hələ öz həllini gözləyir. Bugünlərdə Ağdaşda "Ağsaray" toyxanasında "Ağabala" ansamblının (axırıncı zarafatdır, ansamblın adı "Bəyoğlan"dır - Z.H.) musiqiçiləri mahnı sifariş verən vətəndaşı yaxşıca əzişdiriblər, hazırda 2 nəfər polisdədir. Bunun özü maraqlıdır ki, adətən toyda manısları döyürdülər, indi onlar mahnı sifariş edənləri şappıldadır. Deməli, sənətkarlarımız arasında zorakılığa meyl artır. Əlbəttə, şübhəli şəkildə Alim müəllim də toyda rep oxumağa başlayıb. Reperlər arasında bir-birini öldürmək adəti vardır, uzaq olsun.

Toyda mahnı sifarişi qanunu qəbul edilməlidir, uzun sözün qısası.

***P.S.** Epiqrafda şair demək istəyir ki, yarın qaşları canını alsa dözməlisən, çünki müftə çılçıraq, lüstr (qəndil) heç harda yoxdur, xüsusilə tamaşalı yerlərdə...*

**Hindistanın Milli Müdafiə Kollecinin nümayəndə heyətinin Ermənistan Respublikasına "tanışlıq səfəri" son dövrlərdə İrəvanla Dehlinin siyasi və hərbi təmaslarını intensivləşdirməsi fonunda diqqət çəkir.**



# Hindistan İrəvana hansı qırıcıları verir?

## Polkovnik: "2020-ci ildə Ermənistanın arsenalındakı Rusiya silahlarının taleyi necə oldusa, Hindistan silahlarının da aqibəti o cür olacaq"

Səfər rəsmi səviyyədə tanışlıq adı altında təqdim olunsa da, bu hadisənin arxasında daha dərin və narahatedici geosiyasi niyyətlərin dayandığı aydın görünür. General-mayor Samart Naqarın rəhbərlik etdiyi nümayəndə heyəti Ermənistanın hərbi rəhbərliyi ilə görüşlər keçirir, müxtəlif obyektlərlə tanış olur və bu yolla Hindistan-Ermənistan hərbi əlaqələrinin gələcək istiqamətlərini formalaşdırmağa çalışır.

Bu arada məlum olub ki, Ermənistan Hindistanla "Su-30MKI" çoxməqsədli qırıcıların mümkün alınması ilə bağlı danışıqlar aparır. Bu barədə Cənubi Qafqazda hərbi-strateji gərginliyin artmasına və Azərbaycan Hərbi Hava Qüvvələrinin əhəmiyyətli dərəcədə gücləndirilməsinə işarə edən Yeni Dehlidəki mənbələr bildiriblər.

Azərbaycan Pakistanla 40 ədəd "JF-17 Thunder Block III" qırıcılarının tədarükü ilə bağlı müqavilə əsasında döyüş təyyarələri parkını əhəmiyyətli dərəcədə genişləndirir.

İlkin sifarişə 16 ədəd daxil idi, lakin iki dəfədən çox artırıldı. Platformalar, döyüş sursatı, logistik dəstək və uçuş heyətinin təlimi daxil olmaqla, sövdələşmənin ümumi məbləği 4,6 milyard ABŞ dolları həcmində qiymətləndirilir. Bunun fonunda Hindistan Ermənistanla hərbi-texniki əməkdaşlığı, o cümlədən müxtəlif növ silahların tədarükünü sürətləndirib. Bu qarşılıqlı fəaliyyət xəttinin bir hissəsi kimi Yeni Dehli İrəvana Rusiya lisenziyası əsasında Hindistanda istehsal olunan "Su-30MKI" qırıcılarını almağı təklif edib.

Hindistanın "Jetline Marvel" aviasiya nəşri məlumatlı mənbələrə istinadən yazır ki, Ermənistan "Su-30MKI" qırıcılarına "iqtisadi cəhətdən sərfəli" kimi baxır. "Jetline Marvel"in məlumatına görə, Ermənistan Hindistan tərəfi ilə Su-30MKI-nin alınması üçün "yüksək səviyyəli danışıqlara" başlayıb. Rusiya platforması əsasında yaradılmış "Su-30MKI" qırıcısı Hindistanın tələblərinə uyğunlaşdırılıb.

"Su-30MKI"nin modernləşdirilmiş versiyaları qısa və orta mənzilli "hava-hava" raketləri, o cümlədən yerli "Astra" hava-hava raketləri, həmçinin "Rudram" antiradar raketləri ilə təchiz edilib.

Ermənistan Hərbi Hava Qüvvələrinin zərbə potensialını artırsa da, yaxın gələcəkdə regional strateji balans Azərbaycanın xeyrinə dəyişməkdə qalır. Azərbaycanın döyüş aviasiya donanmasının davam edən modernləşdirilməsi prosesini nəzərə alaraq, Ermənistan təkcə texhizat məsələsini deyil, həm də uçuş heyətlərinin təlimi, texniki xidmət, infrastrukturun əsaslandırılması və mövcud hava hücumundan müdafiə sistemləri ilə operativ uyğunluq məsələlərini həll etməli olacaq.

Son nəticədə Hindistan-Ermənistan əməkdaşlığı Azərbaycan üçün yeni bir təhlükə yaratmır, çünki bu cür münasibətlər strateji əsasdan məhrumdur. Lakin bu, regionun sabitliyi və əməkdaşlıq ruhuna qarşı olan dağıdıcı tendensiyadır. Azərbaycan bu prosesləri diqqətlə izləyir və öz regional mövqeyini daha da gücləndirərək, həm Hindistanın qeyri-sağlam siyasətinə, həm də Ermənistanın yeni təxribat planlarına qarşı çevik cavab verməyə qadirdir.

**Hərbi ekspert, polkovnik Rövşən Məhərrəmov "Yeni Müsavat"a şərhində bildirdi ki, Ermənistan kimdən silah, nə qədər hərbi təyyarə alsa da, bu, Ermənistanı xilas etməyəcək:** "Bu yaxınlarda baş verən Hindistan-Pakistan hərbi qarşıdurması sübut etdi ki, Pakistanın hava hücumundan müdafiə silahları və hücum silahları daha güclüdür. Azərbaycan isə Pakistanla sıx hərbi əməkdaşlıq münasibətlərindədir. Ermənistan nə zamansa Hindistan silahları və qırıcı təyyarələrinə arxayın olub Azərbaycana qarşı hərbi müdaxilə etsə, aqibəti 2020-ci ildəki kimi olacaq. 2020-ci ildə Ermənistanın arsenalında olan Rusiya silahlarının taleyi necə oldusa, Hindistan silahlarının da aqibəti o cür olacaq. Bir neçə gün öncə ABŞ-ın "Forbes" jurnalında "Ermənistan Azərbaycanın "JF-17" qırıcılarını almasına necə cavab verə bilər?" adlı irihəcmli məqalə dərc olunmuşdu. Məqalədə yazılırdı ki, Pakistan hökuməti cümə günü sosial media platforması X-də təsdiqləyib ki, Azərbaycan 4,6 milyard dollarlıq müdafiə sazişi çərçivəsində "JF-17" qırıcılarının sifarişini 16-dan 40-a qaldırıb. "JF-17C Block III" qırıcısının 4.5-ci nəsil olması ilə diqqət çəkən müəllif qeyd edir ki, bununla da Azərbaycan qırıcıların sayı baxımından Ermənistanı 10 dəfə geridə qoyub. Eyni zamanda Azərbaycanın xeyli köhnəlmiş olsa da, keyfiyyətli təmirdən çıxmış MiQ-29 qırıcı donanmasını, İsrail və Türkiyə istehsalı olan qabaqcıl dronlarını nəzərə almasaq belə, 40 ədəd "JF-17C Block III" qırıcısı rəsmi Bakıya ciddi üstünlüklər verir.

Ermənistan Pakistanla Azərbaycan arasında baş tutmuş bu silah alış-verişindən xeyli narahatdır. Lakin imkan baxımından zəif olan Ermənistan üçün varlı Azərbaycanla silahlanma sahəsində rəqabət aparmaq çətindir. Bu rəqabətdə Hindistandan qırıcılar alınması da vəziyyəti Ermənistanın xeyrinə dəyişməyəcək".

**Polkovnik qeyd etdi ki, Hindistan Rusiya istehsalı olan Su-30MKI döyüş təyyarəsini lisenziya əsasında hazırlayır. Hindistan tezliklə bu təyyarələrin bir hissəsini ixrac edə bilər və şübhəsiz ki, Ermənistanı potensial müştəri kimi görür:** "İrəvan artıq bu onilliyin əvvəlindən Hindistan istehsalı olan silahlar üzrə rekord həcmli müqavilələr imzalayıb. Hindistan çox güman ki, Azərbaycanın Hindistanın əzəli rəqibi olan Pakistandan qırıcı almasına cavab olaraq Ermənistanı öz qırıcıları ilə təchiz etməyə maraqlıdır. Azərbaycanla havada rəqabət aparmaq üçün yeni qırıcılar əldə etməklə yanaşı, Ermənistan böyük ehtimalla öz hava hücumundan müdafiə sistemlərini də Hindistan, İran və ya digər ölkələrin texnologiyaları ilə təkmilləşdirməyə çalışacaq. Lakin Hindistanın Ermənistana silah satması, nə Ermənistanı xilas edə bilər, nə də Azərbaycana təzyiq vasitəsi ola bilər. Azərbaycanın arxasında güclü iqtisadiyyat, müasir ordu, regional və qlobal səviyyədə güclü diplomatik əlaqələr dayanır. Həm Türkiyə, həm Pakistan, həm də digər nüfuzlu ölkələrlə tərəfdaşlıq edən Azərbaycan bu gün nəinki Cənubi Qafqazın, hətta Avrasiyanın əsas oyunçularından birinə çevrilib. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmiş, Cənubi Qafqazda yeni siyasi reallıq yaratmış bir dövlətdir. Bu reallığı Hindistan silahları ilə dəyişmək mümkün deyil".

Etibar SEYİDAĞA,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 101 (8711) 13 iyun 2025

# Moskva Azərbaycan-NATO əlaqələrindən əndişədə

## Belə rəy yaradılır ki, guya Bakı alyansla Rusiya ilə münasibətlərdə yaranmış gərginlikdən sonra əməkdaşlığa başlayıb; XİN rəsmisinin də dilə gəlməsi...

**Moskva Azərbaycan və Ermənistanın NATO-nun Cənubi Qafqaz regionundakı fəaliyyətindən qaynaqlanan narahatlıqları anlayacağına və belə "aqressiv hərbi blok" ilə əməkdaşlığın potensial təhlükələrini dərk edəcəyinə ümid edir.**



Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova brifinqdə bildirib.

Zaxarova qeyd edib ki, NATO-nun bu regionda mövcudluğu təhlükəsizlik üçün fayda gətirmir, əksinə, Qərb dövlətlərinin əsas məqsədi bölgədə gərginliyi artırmaq, qarşıdurma nöqtələri yaratmaqdır.

O, həm Bakının, həm də İrəvanın Rusiyanın əsaslandırılmış narahatlıqlarını qəbul etməsini və əməkdaşlığın risklərini qiymətləndirməsini vacib sayıb.

Yada salaq ki, ötən həftə Azərbaycan Müdafiə Nazirliyi və NATO arasında 2025-ci il üçün "Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramı"na əsasən, Niderland Krallığının Brunssum şəhərində yerləşən Müştərək Qüvvələr Komandanlığının Mobil Təlim Qrupu ilə "Əməliyyatların planlama prosesi" mövzusunda treninq keçirilib. Milli Müdafiə Universitetinin Hərb Oyunları Mərkəzində keçirilən treninqdə NATO-da əməliyyat planlama və idarəetmə, eləcə də digər mövzularda nəzəri və praktiki məşğələlər təşkil olunub.

İnternetin Rusiya seqmentində belə rəy yaradılıb ki, guya Bakı ilə NATO Moskva ilə münasibətlərdə yaranmış gərginlikdən sonra əməkdaşlığa başlayıblar. Bəllidir ki, Azərbaycanla NATO arasında çoxillik əməkdaşlıq çərçivəsində həm nəzəri, həm də praktiki olaraq kifayət qədər tədbirlər keçirilir ki, onların təşkili üçün suveren dövlət kimi Azərbaycan üçüncü tərəfdən razılıq almağa borclu deyil. Bundan əlavə, Azərbaycan hərbi bloklardan kənarda qalmaq statusuna sadiqdir və bu qəbildən olan ittihamlar gülünc görünür. Azərbaycan hakimiyyəti balanslaşdırılmış xarici siyasətin amillərindən biri kimi 1994-cü ildə "Sülh naminə tərəfdaşlıq" sənədini imzalamaqla NATO ilə qarşılıqlı əməkdaşlığa başlayıb. Azərbaycan-NATO tərəfdaşlığının əsas istiqamətləri siyasi dialoq, sülhməramlı əməliyyatlar, terrorizmlə mübarizə, təhlükəsizliyin təmin edilməsi və müdafiəyə xüsusi önəm verilməklə praktiki əməkdaşlıqdır. Bütün bu məqamlar Azərbaycan tərəfindən 30 il əvvəl bəyan edilib və heç vaxt məxfilik təşkil etməyib. Görünür, Rusiyadakı bəzi dairələr Azərbaycana qarşı kin-küdurətini büruzə vermək üçün hər bir fürsətdən istifadə edir.

**Politoloq Oqtay Qasımov** "Yeni Müsavat"a bildirdi ki, Mariya Zaxarovanın belə bir açıqlama verəcəyi gözlənilən idi. Zaxarovanın bu açıqlaması ona görə gözlənilən idi ki, Rusiya Ukrayna cəbhəsində müəyyən nəticələr əldə eləyəndən sonra keçmiş postsovet ölkələrinə, ilk növbədə də Azərbaycana təzyiq etməyə çalışacaq: "Çünki Azərbaycan öz ordusunu müasir standartlar səviyyəsində qurub, özünün müdafiə və təhlükəsizlik arxitekturasını modernləşdirib ki, bu da Rusiya tərəfindən heç də məmnunluqla qarşılanmır. Rusiya postsovet respublikalarını yalnız öz təsir dairəsində arzulayır və bu ölkələri özünün arxa bağçası hesab edir. Bu ölkələrdən hansı NATO ilə yaxınlaşma siyasəti aparırsa, Moskva ona qarşı aqressivlik nümayiş etdirir, sərt addımlar atır. Biz bunu Gürcüstanın timsalında, eyni zamanda Moldovanın və hazırda Ukraynanın timsalında görməkdəyik. İndi Azərbaycana və Ermənistana ünvanlanmış mesaj da Rusiya tərəfindən xəbərdarlıq mesajı kimi oxunmalıdır. Amma bu mesajlar doğru ünvanlara yönəlibmi, o da ayrı bir mövzudur. Son beş ildə Ermənistanın həm NATO, həm də Avropa İttifaqı ilə münasibətləri ciddi şəkildə inkişaf eləyib, Avropa İttifaqının yarımhərbi missiyası Ermənistan-Azərbaycan sərhədinə yerləşdirilib, ABŞ və Fransa hərbçiləri ilə Ermənistanın hərbi qüvvələri birgə təlimlər keçir, Avropa İttifaqı ilə Ermənistan arasında təhlükəsizlik sahəsində müəyyən anlaşmalar mövcuddur. NATO ilə əlaqələr genişlənməkdədir, Ermənistan ordusunda amerikalı və fransız hərbçilər təlimatçı, müşavir vəzifələrində çalışırlar, Ermənistan ciddi şəkildə Rusiyanın təhlükəsizlik orbitindən uzaqlaşmağa cəhd edir, KTMT-də fəaliyyətini faktiki dayandırmış vəziyyətdədir. O ki qaldı Azərbaycana, Azərbaycanın NATO ilə əməkdaşlığı müstəqillik əldə etdikdən sonrakı illərdən başlayaraq normal şəkildə inkişaf edib. Bu münasibətlər, sadəcə olaraq, müəyyən bir səviyyədə davam etməkdədir. Azərbaycan rəsmən bəyan edib ki, onun Avropa İttifaqı və NATO-ya üzv olmaqla bağlı heç bir planı yoxdur. Sadəcə olaraq, Azərbaycanın Türkiyə və Pakistanla hərbi-texniki sahədə ciddi əməkdaşlığı var. Belə hesab etmək olar ki, Rusiya əslində bunu qəbul etməkdə çətinlik çəkir".

**Politoloq qeyd etdi ki, Azərbaycan müstəqil ölkədir və özünün təhlükəsizlik konsepsiyasına, hərbi doktrinasına uyğun olaraq addımlar atır. Azərbaycan birmənalı şəkildə öz ərazində qonşularına qarşı heç zaman hansısa addımın atılmasına imkan verməyib və bundan sonra da verməyəcək:** "Bütün hallarda Rusiyadan gələn xəbərdarlıqlar müstəqil dövlətin işinə qarışmaqdır. Azərbaycan ərazisindən Rusiyaya qarşı heç bir təhdid yoxdur ki, Rusiya bu qədər narahat olsun və irəli getsin. Rusiyadan verilən açıqlama imperialist düşüncə tərzinə uyğun açıqlamadır. Azərbaycan öz addımlarında müstəqildir və bu, Rusiyaya aydındır, aydın olmalıdır".

**Politoloq Elxan Şahinoğlu** isə bildirib ki, Rusiyanın "RİA Novosti" agentliyinin "Moskva Bakının Rusiyanın yeni regionları və Krımı tanımasına ümid edir" xəbəri, XİN sözçüsü Mariya Zaxarovanın Azərbaycana "NATO ilə əməkdaşlığın risklərini" xatırlatması, bunun ardınca Rusiyanın dövlət "RİA Novosti" agentliyinin "Moskva Bakının Rusiyanın yeni regionlarını (Krım və digər) tanımasını gözləyir" yazması Kreml sahibinin köməkçisi Vladimir Medinskinin son müsahibəsində Qarabağı "mübahisəli ərazi" kimi adlandırmasının təsadüfi, yəni dil sürüşməsi olmadığını bir daha göstərir: "Rusiyanın dövlət agentliyi bu xəbəri adının çəkilməsini istəməyən mənbəyə istinadən yayılıb. Həmin mənbənin Kremldən olduğu aşkardır. Kremlin "RİA Novosti" vasitəsilə Bakıya göndərdiyi mesajı belə oxumaq lazımdır: "Azərbaycanın Rusiyanın Ukraynadan qopardığı bölgələri, o cümlədən Krımı Rusiya ərazisi kimi tanımasını istəyirik". Ötən ilin dekabrında Rusiya səmasında Azərbaycanın mülki təyyarəsini raketlə vurduğuna və vətəndaşlarımızı öldürdüyünə görə Azərbaycandan üzr istəməyən, günahkarları cəzalandırmayan Kreml hələ bizdən Ukraynanın işğalını tanımamızı istəyir. Eyni zamanda NATO ilə, dolayısı ilə Türkiyə ilə hərbi əməkdaşlığımızı inkişaf etdirməməyi istəyir. Bu heç zaman mümkün olmayacaq. Belə olan halda Kremlin və rusiyalı rəsmilərdən, deputatlardan və diplomatlardan Azərbaycana münasibətdə təxribatlar gözləməliyik. Maraqlıdır, Kreml bu "istəyini" ilk dəfə Azərbaycanın adını çəkərək səsləndirib. Kreml eyni istəyinin yerinə yetirilməsini strateji tərəfdaş adlandırdığı dövlətlərdən, o cümlədən Çindən də gözləyirmi? Kreml Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və Avrasiya İqtisadi Birliyi üzvlərindən də Krımı Rusiya ərazisi kimi tanımasını istəyirmi? Başqalarını bilmirəm, Azərbaycan Xarici İşlər Nazirliyi "RİA Novosti"nin təxribatçı xəbərini cavabsız qoymamalıdır".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**



# İlham Əliyevdən Putinə təbrik məktubu

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə təbrik məktubu göndərib.**

Təbrik məktubunda deyilir:

"Hörmətli Vladimir Vladimiroviç!

Dövlət bayramı - Rusiya Günü münasibətilə səmimi təbriklərimi və xoş arzularımı qəbul edin.

Azərbaycan və Rusiya xalqlarını əsrlər boyu ənənəvi sıx dostluq, mehriban qonşuluq və qarşılıqlı dəstək münasibətləri birləşdirir. Bu gün həmin nəcib ənənələr dövlətlərarası əlaqələrimizin hərtərəfli inkişafı və məsələlərin geniş spektri üzrə əməkdaşlığın dərinləşdirilməsi üçün etibarlı bünövrədir.

Əminəm ki, dost xalqlarımızın və ölkələrimizin maraqları naminə biz bundan sonra da Azərbaycan-Rusiya münasibətlərinin möhkəmlənməsi, strateji tərəfdaşlıq və müttəfiqlik ruhunda çoxplanlı qarşılıqlı fəaliyyətin genişləndirilməsi üçün bütün səyləri göstərəcəyik.

Hörmətli Vladimir Vladimiroviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və uğurlar, Rusiyanın bütün vətəndaşlarına isə əmin-amanlıq və tərəqqi arzulayıram".

# Prezidentdən müraciət

**Azərbaycan Prezidenti İlham Əliyev Bakıda keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) ailə məsələləri və sosial siyasət sahəsinə məsul nazirlərinin və qurum rəhbərlərinin "Müasir cəmiyyətdə qadının rolu: dayanıqlı inkişaf və ənənəvi dəyərlər" mövzusunda ikinci iclasının iştirakçılarına məktub ünvanlayıb.**

Məktubda deyilir ki, hazırkı qlobal çağırışlar dövründə Türk Dövlətləri Təşkilatı miqyasında ailə məsələləri və sosial siyasət sahəsində əlaqələrin dərinləşdirilməsi ölkələrimizdə ailə institutunun qorunması və gücləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır, ənənəvi dəyərlərlə uzlaşan dayanıqlı inkişaf və inklüzivlik yolunda yeni imkanlar açır: "Azərbaycan dövləti qadınların hüquqlarının təmin olunması və onların cəmiyyətdə rolunun genişləndirilməsi istiqamətində ardıcıl siyasət həyata keçirir. Ölkəmizdə qadınlar öz mədəni-elmi potensialları ilə ictimai-siyasi proseslərdə yaxından iştirak edir, dövlət qurumlarında layiqincə təmsil olunurlar.

Əminəm ki, iclas zamanı ən aktual məsələlər ətrafında aparacağınız dolğun və səmərəli fikir mübadiləsi birgə hədəflərin müəyyənləşməsi və mühüm platformaların hazırlanması üçün əlverişli zəmin yaradacaq".

YENİ MÜSAVAT
N 101 (8711) 13 iyun 2025

# ABŞ İranla müharibənin bir addımlığında: Trampdan "Görəcəksiniz!" anonsu...

## Vaşinqton mümkün hücum fonunda diplomatik korpuslarını fövqəladə rejimə keçirdi, cənub qonşumuz da hazırlığını elan etdi; bölgə "qan çanağı"na çevrilə bilər - təhlil

**İranın mümkün hücum ehtimalı fonunda ABŞ Dövlət Departamenti dünya üzrə diplomatik nümayəndəliklərini fövqəladə rejimə keçməyə çağırıb. Musavat.com xəbər verir ki, bu barədə "Washington Post" qəzetində yer alan məlumatda qeyd olunub. Məlumata görə, əmr Şərqi Avropa və Şimali Afrikadakı, həmçinin İranın raket zərbələri ilə hədəf ala biləcəyi məsafədə yerləşən bütün səfirlik və konsulluqları əhatə edir. Bu halda ABŞ-ın Azərbaycandakı səfirliyi də DD-nin xüsusi tapşırıqları sferasına düşür.**



Bildirilir ki, ABŞ artıq diplomatik nümayəndəliklərinə göstərişlər verib: fövqəladə hallara cavab verə biləcək xüsusi qrupların yaradılması; mümkün risk və təhdidlərin qiymətləndirilməsi; bu riskləri minimuma endirmək üçün konkret təhlükəsizlik planlarının hazırlanaraq mərkəzə təqdim edilməsi. Departamentdən verilən açıqlamaya görə, bu addım bölgədə son günlər artan hərbi ritorika və təhlükəsizlik məlumatları ilə əlaqəlidir. Xüsusilə İranın birbaşa və ya dolayı yollarla ABŞ maraqlarına zərbə endirmək imkanlarını artırması Vaşinqtonda ciddi narahatlıq doğurub.

Ekspertlərə görə, bu cür addımlar diplomatik "profilaktika" deyil, real təhlükənin astanasında atılan təcili addımlardır. Belə ki, ABŞ son günlərdə Bağdaddakı səfirliyinin heyətini təxliyə edib, Bəhreyn və Küveytdəki ailə üzvlərinə çıxış imkanı yaradıb. Eyni zamanda İranın müdafiə strukturlarının ABŞ bazalarını hədəf almağa hazır olduğu barədə xəbərlər yayılıb. "Washington Post"un məqaləsində qeyd edilir ki, bu əmrlər sadəcə planlaşdırma deyil, təhlükəsizlik sistemlərinin təcili tətbiqi və diplomatik missiyaların real müdafiəyə keçidinə yönəlib.

Qeyd edək ki, ABŞ-İran danışıqları artıq uzun müddətdir dalana dirənib. Nüvə proqramı, Yaxın Şərqdəki vəkil qüvvələrin fəaliyyəti, Suriya və İraqdakı hücumlar fonunda diplomatik masa artıq boş görünür. İndi isə ABŞ öz diplomatik heyətini qorumaq üçün konkret tədbirlər görməyə başlayıb.

Yeri gəlmişkən, ABŞ Prezidenti Donald Tramp jurnalistlərin regiondan amerikalı hərbçilərin ailə üzvlərinin niyə çıxarıldığı ilə bağlı sualına qısa və diqqətçəkən cavab verib: "Görəcəksiniz. Təşəkkür edirəm". Ağ Evin qarşısında verilən bu açıqlama Vaşinqtonun Tehrana qarşı ciddi addımlar atmağa hazırlaşdığı ehtimalını daha da gücləndirib. Tramp əlavə olaraq bildirib: "Biz Tehrana xəbərdarlıq etdik. Onların nüvə silahı əldə etməsinə icazə verilməməlidir. Bundan sonra nə olacağını görəcəyik".

Trampın "nə baş verəcəyini görəcəyik" ifadəsi Vaşinqtonun hazırkı mərhələdə konkret cavab tədbirləri üzərində işlədiyini göstərir. Pentaqon rəhbərliyi artıq İranın nüvə silahı əldə etmək istiqamətində irəlilədiyini bildirib. Tramp administrasiyası bu prosesi birbaşa milli təhlükə kimi qiymətləndirir. Eyni zamanda İran da passiv mövqedə deyil - Müdafiə Nazirliyi bəyan edib ki, ABŞ-ın hərbi mövcudluğu regionda artıq "legitim hədəf" sayılır və qarşıdurma halında ilk zərbələr ABŞ bazalarına endiriləcək.

Beləliklə, ABŞ-İran gərginliyinin diplomatik yolla həll olunma ehtimalı sürətlə azalır. Tərəflər artıq söz müharibəsini deyil, hazırlıq göstərişlərini önə çəkirlər. Təxliyə edilən ailələr, bağlanan səfirlik bölmələri və verilən qısa, lakin ciddi bəyanatlar bölgədə istənilən an münaqişə alovlana bilər siqnalı verir.

"İran istənilən ssenariyə hazırdır, hərbi strategiyası var". İyunun 12-də İnqilab Keşikçiləri Korpusunun (SEPAH) Baş komandanı Hüseyn Səlami belə deyib. Onun sözlərinə görə, İran istənilən səviyyədə müharibəyə hazırdır: "Biz istənilən səviyyədə istənilən müharibəyə hazırıq. Düşmənə xəbərdarlıq edirik ki, heç bir səhvə yol verməsin və nəticələrini diqqətlə düşünsün. Düşmən bizi hərbi təhdid edir, biz istənilən ssenariyə və vəziyyətə hazırıq", - SEPAH komandanı qeyd edib.

İran İsrailin mümkün hücumuna dərhal cavab verəcəyini də açıqlayıb. Bu barədə "The New York Times" mənbəyə istinadən məlumat yayıb. Mənbə bildirib ki, İran ordusu və hökumət rəsmiləri İsrailin hücumu halında cavab tədbirləri müzakirə ediblər. "İslam Respublikası yüzlərlə ballistik raketdən istifadə etməklə İsrailin ərazisinə dərhal əks hücumu nəzərdə tutan cavab planı hazırlayıb", - qeyd edilib. Daha əvvəl CBS telekanalı məlumat yayıb ki, ABŞ rəsmiləri İsrailin İrana qarşı hərbi əməliyyata başlamağa hazır olması barədə məlumat alıblar. "Axios"un məlumatına görə, ABŞ Prezidenti Donald Tramp iyunun 9-da telefon danışığında İsrailin baş naziri Benyamin Netanyahuya belə bir addım atmaması barədə xəbərdarlıq edib.

"Reuters" agentliyinin də öz mənbələrinə istinadla yaydığı məlumatda deyilir ki, İsrail İrana hücumun astanasındadır, sayılı günlər qalıb. Agentlik qeyd edir ki, Böyük Britaniya bütün tankerlərə və digər gəmilərə Fars körfəzindən keçərkən mümkün təhlükəyə hazır olmaq barədə xəbərdarlıq edib. Ən son xəbərə görə isə ABŞ və İran arasında nüvə dosyesi üzrə danışıqların altıncı raundu bazar günü, iyunun 15-də Maskatda keçiriləcək. Danışıqlar prosesində vasitəçi kimi çıxış edən Omanın xarici işlər naziri Bədr əl-Busaidi bu informasiyanı təsdiqləyib.

Regionda hərbi eskalasiya risklərini təhlil edən **Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov** da hesab edir ki, ABŞ və İran arasında danışıqların nəticəsiz qalması, İsrailin hazırda bölgədə yaranmış fürsətdən istifadə etmək niyyəti Yaxın Şərqdə növbəti müharibə üçün zəmin yaradır. "Sözsüz ki, bu mümkün müharibənin bir neçə ssenarisi var və hər bir ssenari qorxunc nəticələr ilə başa çata bilər. Politoloqa görə, "cərrahi hava zərbələri" istisna deyil: "İsrail İranın konkret nüvə obyektlərinə - Natanz, Fordou, Arak, İsfahana hava zərbələri endirə bilər". **Onun fikrincə, "sürətli və məhdud" bir əməliyyatla nüvə infrastruktura ziyan vurmaq əsas məqsəddir. Z.Məmmədov belə güman edir ki, İsrailin "F-35" və digər uzaqmənzilli aviasiya imkanları buna şərait yaradır:** "İran cavab olaraq İsrailə raketlər, dronlar və proksi qüvvələrlə hücum edə bilər. Yeni regional müharibə ehtimalı artır. İsrail isə ABŞ-la koordinasiyalı şəkildə İranın nüvə obyektlərini vura bilər. ABŞ hava hücumları ilə texniki dəstək verə bilər. Yeni infrastrukturu iflic etmək, PUA müdafiəsini susdurmaq və s. Bu, daha genişmiqyaslı və nəticəli ola bilər. Bununla da İranın nüvə proqramı kəskin geriləd bilər".

**Politoloq İran və ABŞ arasında birbaşa qarşıdurma başlanmasını istisna etmir**: "Hörmüz boğazı bağlana bilər, neft qiymətləri kəskin artar. Həmçinin qeyri-ənənəvi üsullar - kiberhücum, sabotaj modelindən istifadə edilməsi mümkündür. İsrail İranın nüvə proqramını birbaşa fiziki zərbə ilə deyil, kiberhücum və daxildəki diversantlar vasitəsilə yavaşlatmağa çalışır. Bu üsul daha gizli və az eskalasiya riski daşıyır. İsrail bir neçə dəfə bu variantdan istifadə edib. O halda, İranın nüvə proqramı gecikə bilər, amma ciddi fəsadı olmayacaq".

**İranın cavab ehtimallarına gəlincə, ekspertin qənaətinə görə, İsrailin şəhərlərinə və hərbi obyektlərinə raket, PUA hücumları ola bilər:** "ABŞ bazalarına - İraqda, Suriyada, Körfəzdə hücumlar təşkil edilməsi mümkündür".

**Emil SALAMOĞLU, "Yeni Müsavat"**



## "Bəlkə də Putinin vecinə deyil" - Tramp

**"Rusiya diktatoru Vladimir Putin Rusiyanın Ukraynaya qarşı müharibədə itkiləri ilə maraqlanmır. Terror ölkəsi hər həftə 5 minə yaxın əsgərini itirir".**

"Unikal" xəbər verir ki, bunu Miranda Devineyə müsahibəsində Amerika Birləşmiş Ştatlarının (ABŞ) Prezidenti Donald Tramp deyib.

"Bəlkə də onun (Putin - red.) vecinə deyil, mən düşünməyə başlayıram ki, onun vecinə deyil . O, Ukrayna kimi çoxlu əsgər itirir. Görək bundan sonra nə olacaq", - o əlavə edib.

Trampın sözlərinə görə, Ukrayna ilə Rusiya arasında müəyyən irəliləyiş əldə edilib, lakin sonra tərəflər razılığı pozub.



## İsrail Suriyada əməliyyat keçirdi

**İDF (İsrail Müdafiə Qüvvələri) əsgərləri Suriyada kəşfiyyata əsaslanan gecə əməliyyatı həyata keçirib. APA bildirir ki, bu barədə İDF məlumat yayıb. "İDF əsgərləri Suriyada məqsədyönlü, kəşfiyyata əsaslanan gecə əməliyyatı həyata keçirib, Suriyada mülki İsrail vətəndaşlarına və İsrail ordusuna qarşı çoxsaylı terror planlarını inkişaf etdirməyə cəhd edən bir neçə HƏMAS terrorçusunu ələ keçirib" , - məlumatda vurğulanıb.**

Qeyd edilib ki, terrorçular əlavə dindirilmə üçün İsrail ərazisinə aparılıb. Bundan əlavə, qoşunlar ərazidəki silah-sursat, o cümlədən odlu silahlar, jurnallar və döyüş sursatlarını aşkar edərək müsadirə ediblər. "İDF İsrail mülki əhalisinə, xüsusən də Qolan təpələrinin sakinlərinə qarşı bütün təhdidləri aradan qaldırmaq üçün fəaliyyətini davam etdirəcək", - məlumatda qeyd edilib.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi**




YENİ MÜSAVAT
N 101 (8711) 13 iyun 2025


# Okeanın o tayından yenə "dini etiqad" böhtanı

## Siyasi şərhçi deyir ki, USCİFR-in hesabatı bəlli dairələrin sifarişidir

**Ermənistan tərəfinin və onun dünya miqyasında təsirli lobbi qruplarının Azərbaycana qarşı ardıcıl və təkrarlanan böhtan kampaniyaları davam edir. Xüsusən də 1988-ci ilində ABŞ Konqresində qlobal dini etiqad azadlığı ilə bağlı prezidentə, dövlət katibi və parlamentə tövsiyələr hazırlamaq məqsədilə yaradılmış ikipartiyalı komissiya - Beynəlxalq Dini Azadlıqlar üzrə Komissiya (USCIFR) Azərbaycana ünvanlı yeni həyasız böhtanla çıxış edib. Erməni mediasının Amerika Erməni Milli Komitəsinə (ANCA) istinadla yazdığına görə, qurum Azərbaycandakı vəziyyəti müzakirə edib və "Vaşinqtonu bir daha "artsax"da dini etiqad azadlığını pozduğuna, ermənilərə qarşı etnik təmizləmə apardığına və erməni məhbuslara qarşı sui-istifadə hallarına görə" Bakıya sanksiyalar tətbiq etməyə çağırıb.**




Bildirilir ki, dinləmələr USCIRF-in bu ilin fevralında Azərbaycanda erməni əhaliyə münasibətdə guya hərbi cinayətlər törədilməsi, dini təqiblər və "artsax"dakı mifik erməni tarixi varlığını silmək üçün sistematik cəhdlərlə bağlı "sübutları üzə çıxaran" (?! - red.) faktaraşdırıcı missiyasının ardınca keçirilib. USCIRF ABŞ-ı "dini etiqad azadlığının ciddi şəkildə pozulmasında iştirak edən" Azərbaycanın dövlət qurumlarına və məmurlarına sanksiyalar tətbiq etməyə səsləyib.

**Siyasi şərhçi Azər Hüseynov** mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb: "Son günlər ABŞ Konqresinə bağlı Beynəlxalq Dini Azadlıqlar üzrə Komissiyanın (USCIRF) Azərbaycana yönəlik açıqlamaları bir daha göstərdi ki, bəzi dairələr ölkəmizin ərazi bütövlüyünü və suverenliyini bərpa etməsini qəbul edə bilmir və bu uğurlu prosesi müxtəlif siyasi ittihamlarla kölgələməyə çalışır. USCİRF-in "artsaxda dini azadlıqların pozulması", "ermənilərə qarşı etnik təmizləmə", "dini abidələrin məhv edilməsi" və "erməni əsirlərə qarşı sui-istifadə" kimi iddiaları tamamilə əsassız və qərəzlidir. Bu tip bəyanatlar daha çox ermənistanyönümlü lobbi qruplarının təsiri altında formalaşır və reallıqla heç bir əlaqəsi yoxdur.

Əslində Azərbaycanın dini və mədəni müxtəlifliyə münasibəti, dünyada tolerantlıq nümunəsi kimi tanınır. Ölkəmizdə müsəlmanlarla yanaşı, xristian, yəhudi və digər dinlərə mənsub icmalar da sərbəst fəaliyyət göstərir. Bakının mərkəzində yerləşən və uzun illər qorunan erməni kilsəsi buna bariz nümunədir. Təkcə bu fakt belə Azərbaycanda dini dözümlülüyün dövlət siyasətinin ayrılmaz hissəsi olduğunu göstərir. Üstəlik, son illərdə Azərbaycana səyahət etmiş ermənilər və əcnəbi jurnalistlər də bu tolerantlıq mühitini öz gözləri ilə görüb təsdiqləyiblər.

Azərbaycan Ordusu 2020-ci ildə əraziləri işğaldan azad edərkən, heç bir dini abidəyə ziyan vurulmayıb, əksinə, bütün tarixi və dini məkanlar qorunub. Bu, dövlət səviyyəsində qəbul edilmiş siyasi iradənin nəticəsidir. Qarabağda və ətraf bölgələrdə işğal zamanı isə vəziyyət tam əksinə olub: məscidlər, qəbiristanlıqlar, türbələr və digər müsəlman abidələri erməni silahlı birləşmələri tərəfindən dağıdılıb, bəziləri isə təhqiredici məqsədlərlə istifadə olunub. Tərtib olunmuş beynəlxalq hesabatlar, fotomateriallar və şahid ifadələri bu vandalizm aktlarını açıq şəkildə təsdiqləyir".

**Erməni kilsələrinin guya dağıdılması və ya məhv edilməsi ilə bağlı iddialara gəldikdə isə analitik qeyd edib ki, burada ciddi tarixi və elmi təhlilə ehtiyac vardır:** "Qarabağ və ətraf ərazilərdəki bir çox "erməni" kilsəsi əslində Qafqaz Albaniyası na məxsus qədim xristian abidələridir. Bu abidələr zamanla erməniləşdirilib və üzərində saxtalaşdırılmış yazılar yerləşdirilib. Azərbaycan bu abidələri öz tarixi kimliyinə qaytarır və onların qorunması üçün müvafiq tədbirlər görür. Bu proses, dini dözümsüzlük deyil, əksinə, tarixi ədalətin bərpasıdır.

USCİRF-in çağırış etdiyi "sanksiya" ritorikası isə həm beynəlxalq hüquqa, həm də ABŞ-ın özünün elan etdiyi dini azadlıqlar prinsiplərinə ziddir. Belə çağırışlar regionda davamlı sülh və etimad mühitinə xidmət etmir, əksinə, etnik və dini zəmində yeni qarşıdurmalara zəmin yaradır. Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həyata keçirdiyi siyasət beynəlxalq hüquqa, xüsusilə də dövlətlərin suverenliyi və daxili işlərinə qarışmamaq prinsipinə əsaslanır.

Sonda bir daha qeyd olunmalıdır ki, Azərbaycanda qeyri-müsəlman dini icmalara qarşı hər hansı sistemli təzyiq və ya təqibdən danışmaq tamamilə əsassızdır. Ölkəmizdə yəhudi sinaqoqları, pravoslav və katolik kilsələri, protestant ibadət evləri, o cümlədən Alban-Udi icmasının fəaliyyət göstərməsi və dövlət tərəfindən dəstəklənməsi Azərbaycanın dini plüralizmə verdiyi dəyərin göstəricisidir. Bu reallıqları görmək üçün heç də mürəkkəb araşdırmalara ehtiyac yoxdur - sadəcə olaraq, istənilən obyektiv əcnəbinin Azərbaycana səfəri yetərlidir".


**Azərbaycan Respublikasının Mediánın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Afaq MİRAYİQ**


# Həcc əvəzinə məktəb tikmək

## Tacikistan Prezidenti Emoməli Rəhmonun təklifinə Azərbaycandan dəstək

**"Cəmiyyətimizdə çoxlu insanlar var ki, Həcc ziyarəti üçün vəsait toplayıb, sonra ondan doğma yurdlarını abadlaşdırmaq üçün istifadə edirlər - yollar və körpülər, tibb məntəqələri, məktəblər, uşaq bağçaları və digər mühüm sosial obyektlər tikirlər". Bunu Tacikistan Prezidenti Emoməli Rəhmon Qurban bayramı münasibətilə təbrikində deyib.**



O qeyd edib ki, beləleri xalqa, gələcək nəsillərə xidmət edir və heç şübhəsiz, böyük mənəvi mükafat alır: "Bu baxımdan hər birimiz İslam təlimlərinin mahiyyətini və humanist əsaslarını dərindən dərk etməli, həddi aşmağa, təmtəraqlı dəbdəbələrə uymamalı, lüzumsuz şənliklər və təmtəraqlı mərasimlər təşkil etməməliyik".

Maraqlıdır, Tacikistan təcrübəsi ölkəmizdə də tətbiq edilə bilərmi? Ən azı, bir neçə il Həcc ziyarətinə sərf olunan vəsait ölkə daxilində müəyyən problemlərə yönəlsin?

İlahiyyatçı Tural İrfan Bakı-xəbər.com-a şərhində bildirib ki, hər bir vətəndaşın borcudur vətənə, xalqa xidmət etsin, dövlətin mənafeyini, milli dəyərləri şəxsi ambisiyalarından üstün tutsun: "Din də bunu tələb edir ki, cəmiyyət bütün fəaliyyətində xalqın ümumi rifahı üçün çalışsın, bacardığı töhfəni əsirgəməsin. Dində belə bir qayda var ki, əgər müsəlman bir vacib namaz qılarkən digər birinin evi yansa, yaxud müəyyən ehtiyacını qarşılamaq üçün çağırış etsə, gərək namaz qılan ibadətini tərk edib o şəxsin yardımına qaçsın. Digər ibadətlər də belədir. Doğrudur, Həcc İslam dinində önəmli ibadətlərdəndir. Lakin ondan daha vacib və önəmli məsələlər ortaya çıxdıqda din əmr edir ki, daha vacib və zəruri olanı yerinə yetirmək lazımdır. Şübhəsiz, Həccə getmək üçün, xüsusilə də dəfələrlə müstəhəb olaraq təkrar Həccə gedənlər üçün vacibdir ki, o pulu abadlıq işlərinə, digər müsəlmanların, cəmiyyətin rifahına sərf etsinlər. İmam Əli buyurur ki, vacib məsələlərə xələl gətirən müstəhəbləri tərk edin. Əlaxüsus da bu ibadəti icra etmək üçün səfərin qiymətini normadan artıq qaldırıblar və demək olar ki, bu ibadət artıq biznes və şöhrət alətinə çevrilib. İsraf etmək də günahdır. Təbii ki, Həccə getmək əvəzinə vətəndaşlar həmin vəsaiti daha xeyirli, daha faydalı işlərə yönəldə bilərlər. Tutaq ki, Qarabağın abadlaşmasında öz qatqılarını istəyən şəxslər müvafiq fonda ianə şəklində dəstək ola bilərlər ki, bunun savabı, qiyməti yüz dəfə təkrar Həccə getməkdən daha artıq olar. İmkansız ailələr, təhsil alan kasıb uşaqlar, kimsəsiz qocalar var ki, onlara yardım etmək müstəhəb Həcc ibadətindən önəmli və vacibdir. Yaxşı olar ki, bu barədə bizim din xadimləri, aidiyyəti qurumlar maarifləndirmə aparsınlar".

Maraqlıdır ki, builki Həcc ziyarətinə 1 milyon 673 min 230 zəvvar qatılıb. "Assoşieyted Press" ("Associated Press") agentliyi yazır ki, pandemiya dövrünü çıxsaq, bu, son 30 ilin ən aşağı göstəricisidir.

2024-cü ildə zəvvarların sayı 2025-ci illə müqayisədə təqribən 160 min nəfər çox olub.

Koronavirus pandemiyası ilə əlaqədar 2020-2022-ci illərdə Səudiyyə Ərəbistanı Həcc ziyarətinə məhdud sayda zəvvar buraxıb.

Pandemiyadan sonra ilk məhdudiyyətsiz ziyarət 2023-cü ildə baş tutub. O zaman da zəvvarların sayının 2025-ci ildəkindən çox olduğu, pandemiyadan əvvəlki dövrdə isə Həcc ziyarətində hər il adətən 2 milyondan artıq müsəlmanın iştirak etdiyi vurğulanır.

"Assoşieyted Press"in bildirdiyinə görə, son 30 ildə rekord göstərici 2012-ci ildə qeydə alınıb: 3 milyon 160 min zəvvar.

Builki ziyarətdə iştirak edən 1 milyon 673 min 230 zəvvarın böyük əksəriyyətinin Səudiyyə Ərəbistanına xarici ölkələrdən gəldiyi, yəni Səudiyyə Ərəbistanının deyil, başqa ölkələrin vətəndaşları olduğu bildirilir.

Agentlik yazır ki, bəzi müsəlmanların Həcc ziyarətində iştirakına, çox güman, dünyada inflyasiyanın, iqtisadi böhranın güclənməsi mane olub. Havanın həddən artıq isti keçməsinin, əcnəbilərin Səudiyyə Ərəbistanına viza alması prosedurunun çətinləşməsinin də zəvvar sayının azalmasında rol oynaya biləcəyi vurğulanır.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 101 (8711) 13 iyun 2025

# Qazaxıstan Ukraynanın taleyini yaşaya bilərmi?

## Politoloq bu ölkədə xarici qüvvələrin təsiri ilə gərginlik ssenarilərini mümkün sayır



**Mərkəzi Asiya hazırda dünya güclərinin - Rusiya, Çin və Qərbin maraqlarının toqquşduğu strateji bir regiona çevrilib. Bu fondda Ukrayna lideri Zelenskinin "Rusiyanın növbəti hədəfi Qazaxıstan ola bilər" açıqlaması geniş rezonansa səbəb olub. Bəs bu açıqlama real təhlükəyə əsaslanır, yoxsa siyasi təzyiq vasitəsidir? Hazırkı şəraitdə Qazaxıstanın hədəfə çevrilməsinin səbəbləri nədən ibarətdir və ölkədə etnik toqquşmalar baş verə bilərmi?**

Moderator.az-a danışan **politoloq Sultan Zahidov** bildirib ki, Mərkəzi Asiya uzun illərdir ki, böyük güclərin geosiyasi maraq dairəsində yer alır. Onun sözlərinə görə, Kreml tərəfindən Qazaxıstana müxtəlif təzyiqlərin tətbiq edildiyini müşahidə edə bilərik: "Məsələn, Qazaxıstanın enerji resurslarının Avropaya nəql edildiyi əsas marşrutlardan biri - Xəzər Boru Kəməri Konsorsiumu (Caspian Pipeline Consortium - CPC) Rusiya ərazisindən keçir. 2022-ci ildə bu kəmərin Rusiyadan keçən hissəsində baş verən qəza təsadüfi yox, təzyiq vasitəsi kimi dəyərləndirilmişdi. Eyni zamanda həmin il Qazaxıstanda baş verən iğtişaşlar zamanı Rusiya Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının xətti ilə bölgəyə hərbi kontingent göndərdi. Bu da göstərdi ki, Moskvanın regionda təsir imkanları hələ də mövcuddur. Bütün bu məqamlar onu göstərir ki, Rusiya üçün Qazaxıstan strateji əhəmiyyətə malik dövlətdir. İki ölkə arasında uzun və geniş bir sərhəd mövcuddur. Belə bir vəziyyətdə Rusiya çalışacaq ki, Qazaxıstanı öz nüfuz dairəsində saxlamağa davam etsin və bu ölkəni Qərbə yaxınlaşdıracaq addımları minimuma endirsin".

**Politoloq qeyd edib ki, Qazaxıstanın neft və qaz ehtiyatları, eləcə də strateji yerləşməsi Rusiyanın maraqları baxımından həyati əhəmiyyət daşıyır:** "Buna görə də Rusiya heç bir halda Qazaxıstanı itirmək istəməz. Lakin son zamanlar bu ölkədə fərqli siyasi xəttin formalaşdığının şahidi oluruq. Aydın görünür ki, Qazaxıstan müstəqil dövlətdir və öz milli maraqlarına uyğun siyasət yürüdür. Qazaxıstanın Qərblə münasibətləri inkişaf etdirmək yönündə atdığı addımlar, xüsusilə Avropa İttifaqı ilə yaxınlaşma cəhdləri və bir neçə gün öncə Böyük Britaniya ilə hərbi planlaşdırma sahəsində imzalanan əməkdaşlıq sazişi, şübhəsiz ki, Rusiyanın bəyənmədiyi məqamlardandır. Bu kimi proseslər Rusiya üçün Qazaxıstana qarşı müxtəlif təzyiq alətlərindən yenidən istifadə etmək imkanı yarada bilər. O ki qaldı ölkədə etnik toqquşmaların baş verməsi ehtimalına, bu mərhələdə belə bir ssenarinin reallaşacağı inandırıcı görünmür. Hazırda Qazaxıstanda nisbi sabitlik mövcuddur, ölkə daxilində inkişaf müşahidə olunur. Buna görə də yaxın perspektivdə etnik zəminli qarşıdurmaların baş verəcəyi real görünmür. Lakin gələcəkdə xarici qüvvələrin təsiri ilə istənilən ssenari mümkündür".

❑ **"Yeni Müsavat"**



# "Rusiya Almatı Bəyannaməsini rədd edir" iddiası

## Kreml digər postsovet ölkələri ilə bağlanmış bütün əvvəlki razılaşmaları siyasi təftişə məruz qoyacağına işarə edir

**Keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov Rusiya Prezidentinin köməkçisi Vladimir Medinskinin son bəyanatlarını təhlil edərək bildirib ki, bu çıxışlar təkcə Ukraynaya deyil, postsovet məkanındakı bütün dövlətlərə yönəlmiş yeni konseptual yanaşmanın göstəricisidir.**

Zülfüqarovun fikrincə, Medinskinin qalmaqal doğuran bəyanatında ən mühüm məqamlardan biri Rusiya Federasiyasının Ukrayna ilə münasibətlərdə 1991-ci ilin dekabrında qəbul olunmuş Alma-Ata Bəyannaməsinin (indi şəhər Almatı adlanır - red.) prinsiplərini rədd etməsidir. O bildirib ki, bu sənəd SSRİ-nin sülh yolu ilə dağılmasını və keçmiş ittifaq respublikalarının beynəlxalq səviyyədə tanınan sərhədlərlə müstəqil dövlətlər kimi qəbul edilməsini təmin edirdi.

Medinskinin bu sənədi şübhə altına alması isə Zülfüqarovun fikrincə, Kremlin digər postsovet ölkələri ilə bağlanmış bütün əvvəlki razılaşmaları siyasi təftişə məruz qoyacağına işarə edir.

Keçmiş nazirin sözlərinə görə, Medinskinin çıxışında prezident Vladimir Putinin "kim hansı sərhədlərlə SSRİ-yə daxil olubsa, o sərhədlərlə çıxmalıdır" tezisi gələcək siyasətin əsas dayağı kimi təqdim olunur. Bu isə faktiki olaraq bəzi respublikaların, o cümlədən Azərbaycanın, Gürcüstanın və Orta Asiya ölkələrinin ərazi bütövlüyünə dair fundamental hüquqi əsasları sual altına alır.

Zülfüqarov qeyd edib ki, Kremlin bu yeni doktrinası Rusiya Federasiyasının regiondakı gələcək addımlarını müəyyən edə və "sabitlik və sərhədlərə hörmət" prinsiplərini açıq şəkildə poza bilər.

**Milli Məclisin deputatı, Ana Vətən Partiyasının sədr müavini Günay Ağamalı "Yeni Müsavat"a bildirdi ki, son dövrlər Rusiya siyasi elitası tərəfindən təhlükəli fikirlərin artmasının şahidi oluruq:** "Medinskinin son bəyanatı və Xarici İşlər Nazirliyinin sözcüsü Mariya Zaxarovanın Azərbaycan və Ermənistanı hədəf alan təhdid xarakterli çıxışı Kremlin xarici siyasətində arzuolunmaz dönüşün siqnalıdır. Bilindiyi kimi, Rusiya hər zaman postsovet məkanında öz imperiya ambisiyalarını tətbiq etməyə çalışır. Onlar bunu daha çox təhdid metodları üzərindən təqdim etməyə üstünlük verirlər. Belə olduğu təqdirdə isə Rusiyanın Ukrayna gərginliyi fonunda SSRİ-nin süqutunun hüquqi bazası olan Almatı Bəyannaməsini açıq şəkildə şübhə altına alması MDB məkanında yeni siyasi və təhlükəsizlik böhranlarına zəmin yarada bilər".

**Deputat dedi ki, Azərbaycan uğurlu hərbi-siyasi əlaqələrlə özünün təhlükəsizlik çətirini formalaşdırmağı bacarıb:** "Türkiyə, Pakistan və İsraillə qurulan sıx əməkdaşlıq portfeli aydındır ki, zəif Ermənistan üçün deyil, məhz daha böyük xarici aqressiyalara qarşı hesablanmış strateji gedişdir və bura Moskva tərəfindən irəli sürülən qərəzli yanaşmalar da daxildir. Nəticə etibarilə Rusiya rəsmilərinin səsləndirdiyi fikirlər keçmiş narrativləri canlandırmaq cəhdidir".

**AMİP liderinin köməkçisi, politoloq Əli Orucov bütün bunların Kremlin bir daha öz imzasına sadiq qalmadığını sübut etdiyini vurğuladı:** "Aydın idi ki, Rusiya qlobal siyasətin gedişindən asılı olaraq, imperiya ambisiyalarını həyata keçirməyə can atacaq. Ukraynaya təcavüz də məhz həmin iddiaların başlanğıcı hesab olunur. Moskva bu yöndə ən böyük maneəni aradan qaldırmağı hədəfledi. Təbii ki, əgər Ukrayna işğalını tam başa çatdırsa, digər keçmiş ittifaq respublikalarını ələ keçirmək elə də çətin olmazdı. Ancaq 2022-ci ilin fevralından başlayan işğalçı müharibənin gözlənilmədən uzanması Moskvanın planlarında redaktələri etməyə məcbur etdi və digər postsovet ölkələrinə qarşı ritorikasında da yumşalmalar etdi. Müxtəlif formatlarda əməkdaşlıq və müttəfiqlik sənədləri imzalamaqla hiyləgər gedişlər etdi. Prezident köməkçisi Medinskinin açıqlamaları təsadüfi deyil və bu gələcək təhlükələrdən xəbər verir. Doğrudur, əvvəllər də Kremlə bağlı bəzi politoloqlar SSRİ-nin bərpası barədə fikirlər səsləndirirdilər. Putinin özü də ənənəvi illik keçirdiyi mətbuat konfransında SSRİ-nin dağılmasını təəssüflə qeyd etmişdi. Lakin Medinskinin fikirləri gələcək təcavüz üçün hüquqi əsaslandırma, yaxud baza yaratmaq istiqamətində ilk cəhd hesab oluna bilər. Bir daha sübut olundu ki, Rusiya öz imzasına sadiq deyil və istənilən vaxt həmin sənədləri kağız parçasına çevirir. Dövlətlərin suveren hüquqlarını real olaraq tanımır. Rusiya prezidentinin köməkçisinin keçmiş Dağlıq Qarabağ mübahisəli ərazi kimi təqdim etməsi və Ukraynadan ilhaq etdiyi ərazilərə haqq qazandırması, həmçinin keçmiş ittifaq əraziləri barədə səsləndirdiyi fikirlər əslində Putinin konkretləşmiş və üstləşdirilmiş mövqeyidir. Ardınca Rusiya XİN sözçüsü Zaxarovanın hədələyici tonda postsovet dövlətlərini hədələməsi və şantajı, həm də dövlətlərin suveren hüquqlarına və müstəqilliklərinə təhdid, eyni zamanda gələcək aqressiya üçün bəhanədir. Hər bir dövlət öz siyasi kursunu və müttəfiqlərini seçməkdə müstəqildir. Bu müttəfiqlik müxtəlif formatlarda və sferalarda ola bilər. Lakin Moskva həmin müstəqil dövlətləri hədələyir ki, Rusiyanın orbitindən çıxa bilməzlər və bu onlar üçün fəlakətlə nəticələnə bilər. SSRİ-nin süqutundan sonra uzun müddət təkqütblü dünya düzəni və liberal dəyərlərin üstün mövqeyi bir qədər beynəlxalq hüquqi sistemi işlək vəziyyətdə saxlayırdı. Birləşmiş Ştatlar və onun qərbli müttəfiqləri dünyadakı prosesləri nəzarətlərində saxlaya və istiqamət verə bilirdi. Lakin son dövrlər zorakılığın və gücün rolunun artması inkişaf etməkdə olan və yaxud kiçik dövlətləri ciddi təhlükə ilə üz-üzə qoyub. Ona görə də belə dövlətlər rejimlərin xarakterindən daha çox hərbi potensialına əsaslanaraq yaxınlaşmağı üstün tutmaqdadır. Rusiyadan gələn təhlükənin ciddiliyini nəzərə alan Mərkəzi Asiya Türk dövlətləri dövlətləri Aİ və Çinlə əməkdaşlığa can atırlar. Həmçinin TDT-nin gücləndirilməsinə səy göstərilir. Azərbaycan Türkiyə və Pakistan kimi təbii müttəfiqləri ilə bütün sahələrdə əməkdaşlığını dərinləşdirir. Ermənistan və Moldova Qərbə can atır. Gürcüstan Rusiya təhlükəsini azaltmaq üçün ehtiyatlı siyasət yürüdür. Hətta Putinin dostu və müttəfiqi Lukaşenko Belarusun gələcəyi barədə narahatdır. Kövrək bölgə olan Cənubi Qafqazda hər an milli ədavəti qızışdırmaq və münaqişə ocağı alovlandırmaq riskləri qalır. Bunun işartıları artıq Ermənistanda görünməkdədir. Hesab edirəm ki, Rusiyanın cəhdlərinə və böyük ambisiyalarına baxmayaraq, imperiya sərhədlərini bərpa etmək real görünmür və bu, xülyadan başqa bir şey deyil".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 101 (8711) 13 iyun 2025

# Azərbaycan turizmində milyardlıq artım vədi

## Ekspert deyir ki, ölkəmizin ÜDM-in 11 faizini turizmdən əldə edəcəyi proqnozlaşdırılır, bəs..?




**Azərbaycanın turizm sektoru 2025-ci ildə sürətli artıma hazırdır. Ümumdünya Səyahət və Turizm Şurasının (WTTC) proqnozlarına əsasən, turizm sənayesinin bu il ölkə iqtisadiyyatına 10,3 milyard manat töhfə verəcəyi gözlənilir ki, bu da ötən illə müqayisədə 32% çoxdur. Bu, ölkənin ümumi ÜDM-nin 8,2%-ni təşkil edir. Bundan əlavə, sektorun Azərbaycanda ümumi məşğulluğun təxminən 10%-ni təşkil edən təxminən 472 000 iş yerinin dəstəklənəcəyi gözlənilir.**

Beynəlxalq turistlərin xərclərinin 2025-ci ildə pandemiyadan tam sağaldığını göstərən 5,5 milyard manata çatacağı proqnozlaşdırılır, daxili xərclər isə 3,8 milyard manatlıq yeni rekord həddə çata bilər.

Azərbaycan qlobal turizm səhnəsində özünü inamla təsdiq edir. Artan turist xərcləri və artan məşğulluq 2025-ci ili ölkə üçün perspektivli və potensial oyun dəyişənə çevirir. Bu rəqəmlər Azərbaycanın artan beynəlxalq cəlbediciliyini şaxələndirməyə, mədəni təşviqə və davamlı inkişafa yönəlmiş uzunmüddətli strategiyanın uğurla həyata keçirildiyini nümayiş etdirir.

2024-cü ildə Azərbaycanın turizm sektoru ölkə iqtisadiyyatına 7,8 milyard manat töhfə verib ki, bu da 2019-cu ilin COVİD-19-dan əvvəlki səviyyədən 10% azdır və 423,7 min nəfəri işlə təmin edib. İl ərzində xarici turist xərcləri illik müqayisədə 29% artaraq 3,4 milyard manat təşkil edib. Daxili turizm də artım nümayiş etdirdi: yerli səyahətçilər 2023-cü ildən demək olar ki, 10% çox olmaqla 3,5 milyard manat xərcləyiblər.

Gələcəyə nəzər salsaq, Dünya Səyahət və Turizm Şurası 2035-ci ilə qədər Azərbaycanın turizm sektorunun iqtisadiyyata hər il 17 milyard manatdan çox töhfə verəcəyini proqnozlaşdırır. Bu, ölkənin ÜDM-nin təxminən 11%-ni təşkil edəcək. Sənayedə təxminən 670,000 nəfərin çalışacağı gözlənilir ki, bu da növbəti onillikdə 200,000 yeni iş yerinin yaradılması deməkdir. Beynəlxalq turizm xərcləri isə 9,5 milyard manatdan bir qədər az, daxili turizm xərcləri isə 6,3 milyard manata çatacaq ki, bu da sektorun balanslaşdırılmış və davamlı artımını əks etdirir.

Bununla belə, turizm sektorunda hələ də bir sıra çətinliklər və maneələr mövcuddur. Bu problemlərin aradan qaldırılması və turizm sahəsinin daha da inkişaf etdirilməsi üçün müəyyən sahələrə diqqət yetirilməlidir. Mütəxəssislər qeyd edirlər ki, Azərbaycanda turizmin inkişafını məhdudlaşdıran ən əsas amillərdən biri infrastruktur problemləridir. Bir çox turist bölgələrinə, xüsusən də dağlıq və təbii gözəllikləri ilə tanınan yerlərə çatmaq hələ də çətindir. Yolların keyfiyyəti, nəqliyyat vasitələrinin sayı və müasir avadanlıqların olmaması turistlərin rahatlıqla səyahət etməsinin qarşısını alır. Regional hava limanlarının az olması və mövcud limanlarda uçuşların məhdudluğu da turizm sektoruna mənfi təsir edir. Bu səbəbdən, daha geniş nəqliyyat şəbəkəsi qurulmalı, bölgələr arasında əlaqələr yaxşılaşdırılmalıdır.

Turizm sektorunda xidmətin keyfiyyəti bəzən qeyri-kafi olur. Xüsusilə az tanınmış bölgələrdəki hotellər, restoranlar və digər xidmət sahələrində keyfiyyətin yüksək olmaması turistləri uzaqlaşdırır. Bununla yanaşı, xidmət sahəsindəki peşəkar kadr çatışmazlığı da böyük bir problemdir. Bələdçi, hotelçilik və restoran sahəsində təcrübəli və çoxdilli kadrların yetişdirilməsi turizmin inkişafı üçün həyati əhəmiyyət kəsb edir. Yalnız yüksək xidmət keyfiyyəti turizm sektorunun uzunmüddətli uğurunu təmin edə bilər. Azərbaycanın turizm potensialı beynəlxalq aləmdə hələ də kifayət qədər tanınmır. Bir çox turistlər Azərbaycanı yalnız Bakı və Xəzər dənizi ilə əlaqələndirir, amma ölkənin digər bölgələrindəki mədəniyyət, tarix və təbii gözəlliklər hələ tam olaraq kəşf edilməyib.

Qeyd edilir ki, beynəlxalq marketinq və reklam kampaniyaları daha intensivləşdirilməli, sosial media və rəqəmsal platformalar vasitəsilə Azərbaycanın müxtəlif turizm sahələri tanıdılmalıdır. Bu, həmçinin yeni bazarlara çıxışın təmin edilməsi və beynəlxalq turistlərin marağını artıracaqdır. Turistlərin təhlükəsizliyi hər zaman ön planda olmalıdır. Xüsusilə dağlıq və uzaq bölgələrə səyahət edən turistlər üçün təhlükəsizlik məsələləri ciddi narahatlıq doğura bilər. Bununla yanaşı, turizmin inkişafı üçün qanunvericilik və hüquqların təmin edilməsi də vacibdir. Turistlərin hüquqlarının qorunması, fırıldaqçılığın qarşısının alınması və xidmət sahələrində müvafiq standartların tətbiqi, Azərbaycanın turizm sektorunun etibarlılığını artıracaq.

**Turizm üzrə ekspert Cabir Dövlətzadə mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb:** "Azərbaycanın turizm potensialı durmadan inkişaf edir. Bunun əsas səbəbi odur ki, pandemiyadan sonra toparlanan turizm sənayesi artıq 2024-cü ildə daha yüksək səviyyədə özünü göstərməyə başlayıb və 2025-ci ildə gözlənilir ki, Azərbaycan pandemiyadan əvvəlki turizm səviyyəsini bərpa edəcək. Beynəlxalq Turizm və Səyahət Şurasının verdiyi rəqəmlərə nəzər salsaq, gələcək 10 il ərzində Azərbaycanın ümumi daxili məhsulunun 11 faizini turizmdən əldə edəcəyi proqnozlaşdırılır. Bu rəqəmlərin nə dərəcədə dəqiq olduğunu zaman göstərəcək. Lakin görünən odur ki, yaxın gələcəkdə, ən gec 2026-cı ildə quru sərhədlərinin açılacaq olması Azərbaycanı daha təhlükəsiz bir ölkəyə çevirəcək. Ümid edirik ki, 2026-cı ilə qədər Azərbaycan və Ermənistan arasında sülh razılaşması əldə olunacaq və eyni zamanda davam edən münaqişələr - xüsusilə Rusiya-Ukrayna müharibəsi, eləcə də Fələstin və Qəzza bölgəsindəki gərginliklər sona çatacaq. Daha sabit bir dünyada insanların rahat şəkildə səyahət etməsi daha mümkün və uğurlu olacaq. Bu isə 2026-cı ildən etibarən öz təsirini qlobal bazarda da göstərəcək.

Azərbaycan multikultural bir ölkə olduğu üçün bura gələn turistlər yalnız bir dəfə deyil, əksər hallarda öncə kəşf məqsədilə gəlir, daha sonra isə təkrar-təkrar geri dönürlər. Bu, həm ölkənin 11 iqlim qurşağından 9-nun burada mövcud olması ilə, həm də Azərbaycanın turizm sahəsinin keyfiyyətli və rəqabətədavamlı olması ilə bağlıdır.

Qeyd etmək lazımdır ki, işğaldan azad olunmuş ərazilərdə artıq üçüncü beynəlxalq hava limanının istifadəyə verilməsi bu bölgələrə səfərləri əhəmiyyətli dərəcədə artıracaq. Həmin ərazilər tədricən Azərbaycan turizm iqtisadiyyatına birbaşa töhfə verəcək. Xüsusilə Kəlbəcərdə yerləşən İstisu sanatoriyasının və digər bölgələrdə infrastrukturun yaxşılaşdırılması yalnız mövcud turizm marşrutlarına deyil, həm də yeni istiqamətlərin yaranmasına şərait yaradacaq. Bu ərazilər Azərbaycanın cənnət guşələri hesab olunur və ora olan turizm axını yalnız quru yollarla deyil, həm də birbaşa hava nəqliyyatı ilə təmin ediləcək. Ümumilikdə isə gözləntilər yüksəkdir və ümid edirik ki, qarşıdakı illərdə bu pozitiv tendensiyalar Azərbaycanda turizmin tam potensialını nümayiş etdirməsinə səbəb olacaq. Mövcud vəziyyətə diqqət etdikdə görürük ki, Azərbaycanda artıq yalnız böyük hotellər deyil, həm də 3, 2, 1 ulduzlu hostellər və əlavə olaraq ev turizmi də bölgələrdə inkişaf edir. Bu inkişaf beynəlxalq miqyasda Azərbaycanın rəqabətə davamlılığını nümayiş etdirir və artıq keyfiyyətli xidmətlə yanaşı, düzgün və davamlı böyüməni də özü ilə gətirir. Ümid olunur ki, qarşıdakı dövrlərdə də düzgün kapital sərmayəsi qoyuluşu ilə bölgələrdə turizmin inkişafına daha da geniş imkanlar yaradılacaq və bu sahə daha yüksək səviyyəyə çatacaq".

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**



## Azərbaycana 8 milyondan çox həşərat gətirilib

**Azərbaycana bu il 8 milyon 509 mindən çox həşərat gətirilib. İdxalın 95%-i Rusiyanın payına düşüb. Mərakeşdən və Belçikadan da az həşərat gətirilməyib.**

Maraqlıdır, 8 milyon həşərat ölkəyə hansı məqsədlə gətirilib?

Belə ki, Qərbi Afrika ölkələri, Çin, Yaponiya kimi Şərqi Asiya ölkələrinin mətbəxində də həşəratlardan təam kimi istifadə olunur. O ki qaldı 8 milyondan çox həşəratı Azərbaycana kim və hansı məqsədlə gətirib, bu barədə Gömrük Komitəsindən bildirilib ki, məsələ kommersiya sirri olduğu üçün heç bir məlumat verilə bilməz.

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) isə Baku TV-nin suallarını belə cavablandırıb: "Bu faydalı həşərat və orqanizmlər elmi-tədqiqat, kənd təsərrüfatı və təbii ekosistemlərdə zərərvericilərə qarşı mübarizə aparmaq və ətraf mühitin sağlamlığının qorunması məqsədilə istifadə olunur. Bioloji mübarizə məqsədilə istifadə edilən bu həşəratların üstünlükləri ondan ibarətdir ki, kimyəvi mübarizədən fərqli olaraq bitkilərə qalıcı təsir göstərmir, ekoloji zərər vermir, torpağın münbitliyi qorunduğu üçün növbəti illərdə məhsuldarlıq artır. Bundan əlavə, ixrac üçün yetişdirilən məhsullarda pestisid qalığı riski sıfıra yaxın olur".




## Bakıda avtobus zolaqları ilə bağlı vacib açıqlama

Avtobus zolaqlarında minik avtomobillərinin sərnişinləri mindirib-düşürməsi üçün xüsusi yerlər yaradılır. Bu barədə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) məlumat yayıb.

Bildirilib ki, bu yerlər əsas cəlbetmə məntəqələri, nəqliyyat vasitələrinin rahat manevr etməsi və sərnişinlərin təhlükəsizliyi nəzərə alınmaqla təşkil edilir.

Qeyd olunub ki, məqsəd avtobus zolaqlarında ictimai nəqliyyatın hərəkətinə mane olmadan sərnişinlərin minib-düşməsinə imkan yaratmaqdır.

YENİ MÜSAVAT
N 101 (8711) 13 iyun 2025

# Ərəb investisiyası Azərbaycan yolunda

## Səudiyyə Ərəbistanı ilə birgə İnvestisiya Fondunun yaradacağı fürsətlər...

**Azərbaycan Səudiyyə Ərəbistanı ilə birgə əldə olunan razılaşmaları reallığa çevirmək üçün ciddi şəkildə çalışır. Bu məqsədlə birgə investisiya fondunun yaradılması və hər iki ölkənin hüdudlarından kənarda investisiya layihələrinin həyata keçirilməsi təklif edilir. Bu fikirlər Azərbaycanın ər-Riyaddakı səfiri Şahin Abdullayevin Səudiyyə Ərəbistanının Londonda nəşr olunan “əş-Şarq əl-Avsət” qəzetinə müsahibəsində yer alıb.**

Səfir deyib ki, iqtisadiyyat naziri Mikayıl Cabbarovun Səudiyyə Ərəbistanına son səfərində hər iki ölkənin iqtisadi gündəmində prioritet sahələrə sərmayə yatırmağı hədəfləyən birgə suveren investisiya fondunun yaradılması və üçüncü ölkələrdə də birgə investisiya layihələrinin həyata keçirilməsi təklifi irəli sürüb. Eyni zamanda müsahibədə Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında investisiyaların qorunması üzrə imzalanmış müqavilənin əhəmiyyəti vurğulanır və Azərbaycanda azad iqtisadi zonalara sərmayə yatırmaq üçün səudiyyəli investorlara güzəştlərin təqdim olunduğu bildirilir.

Qeyd edək ki, Azərbaycanın Səudiyyə Ərəbistanı ilə birgə investisiya fəaliyyəti ötən ildən müzakirə olunmağa başlayıb. Ötən ilin oktyabrında Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) Səudiyyə Ərəbistanı Krallığında investisiya imkanlarının araşdırılması məqsədilə Hassana İnvestisiya Şirkəti ilə Anlaşma Memorandumu imzalayıb. Dövlət Neft Fondunun yaydığı məlumata görə, bu memorandum müştərək investisiyaların həyata keçirilməsi imkanlarını araşdırmağa imkan yaradaraq iki qurum arasında strateji əməkdaşlığın inkişafına töhfə verəcək.

**ARDNF-nin icraçı direktoru İsrafil Məmmədov memorandumu yüksək qiymətləndirib**: “Bu Anlaşma Memorandumu yalnız iki maliyyə qurumunun razılaşması deyil, eyni zamanda strateji investisiyalar və dayanıqlı inkişaf üçün ortaq məqsədlərə yönəlmiş tərəfdaşlığın başlanğıcıdır. Bu əməkdaşlıq ARDNF-nin "Vision 2030" strateji hədəfləri çərçivəsində əhəmiyyətli inkişaf və transformasiya dövründən keçən Səudiyyə Ərəbistanındakı investisiya strategiyası baxımından əhəmiyyətli bir mərhələdir. Biz Hassana ilə qarşılıqlı maraq doğuran layihələri müəyyən etmək və inkişaf etdirmək üçün birgə çalışmağa hazırıq".

**Hassana İnvestisiya Şirkətinin rəhbəri Saad bin Abdulmohsen Al-Fadli bu tərəfdaşlığın Şirkəti üçün böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb:** “Hər iki tərəfə Səudiyyə Ərəbistanının investisiya sektorundakı yeni imkanlardan faydalanmağa kömək edəcək bu memorandum sayəsində əməkdaşlığımız özəl səhm, daşınmaz əmlak və infrastruktur sahələrinə fokuslanaraq uzunmüddətli dəyər yaratmağı hədəfləyir”.

Hassana İnvestisiya Şirkəti Ümumi Sosial Sığorta Təşkilatının (GOSI) investisiya meneceri olaraq fəaliyyət göstərir. 1,2 trilyon Səudiyyə riyalı (320 milyard ABŞ dolları) dəyərində aktivləri və dünyanın ən böyük pensiya fondlarından birini idarə edən Hassana, yerli, regional eləcə də, qlobal investisiyalardan ibarət çoxşaxəli portfelə malikdir. Hassana bütün Səudiyyə nəsillərinin gələcək pensiya ehtiyaclarını qarşılamaq məqsədilə dayanıqlılıq prinsiplərinə əsaslanan strategiyası çərçivəsində uzunmüddətli investisiyalar həyata keçirir.

Bu fonddan başqa Səudiyyənin müasir texnologiyalara sərmayə yatıran digər qurumları da var.

**Aprel 2025**

Baş nazirin müavini Samir Şərifov iclasda çıxışı zamanı dövlət başçılarının müəyyən etdiyi strateji hədəflərə çatmaq istiqamətində atılan addımlar və əldə olunan nəticələr barədə ətraflı məlumat verib. O, Səudiyyə Ərəbistanı ilə münasibətlərin inkişafının Prezident İlham Əliyevin müəyyən etdiyi Azərbaycanın əsas xarici siyasət prioritetlərindən biri olduğunu vurğulayıb.

Energetika, yaşıl enerji və infrastruktur layihələri sahəsində əməkdaşlığa toxunan Baş nazirin müavini qeyd edib ki, “ACWA Power” şirkəti artıq Abşeron və Xızı rayonlarında 240 MVt gücündə külək elektrik stansiyası inşa edir. Həmçinin “ACWA Power”, SOCAR və BƏƏ-nin “Masdar” şirkəti Xəzər dənizində 3,5 qiqavat gücündə dəniz külək elektrik stansiyası layihəsi üzərində birgə işləyirlər. Bu təşəbbüs COP29 çərçivəsində imzalanmış üçtərəfli memorandum əsasında həyata keçirilir və Səudiyyə Ərəbistanının enerji keçidi hədəflərinə mühüm töhfə verəcək.

Neft-qaz sektorunda əməkdaşlıq imkanlarına da toxunularaq, SOCAR ilə “Saudi Aramco” arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində aparılan danışıqların uğurla davam etdiyi bildirilib. Bu əməkdaşlıq hər iki şirkətin beynəlxalq bazarlarda mövqelərinin güclənməsinə xidmət edəcək.

Komissiyanın digər həmsədri, Səudiyyə Ərəbistanının investisiya naziri Xalid bin Əbdüləziz Əl-Falih çıxışında Səudiyyə Ərəbistanının Azərbaycanla ticarət əlaqələrinin inkişafında maraqlı olduğunu, ticarət dövriyyəsinin artırılması, energetika, investisiya, turizm, təhsil, səhiyyə, sənaye, kənd təsərrüfatı, alternativ və bərpa olunan enerji sahələrində əməkdaşlığın genişləndirilməsinə önəm verdiklərini bildirib. O, Səudiyyə Ərəbistanı şirkətlərinin bu sahələrə investisiya yatırmaq niyyətini də ifadə edib.

**İyun 2025**

Azərbaycan hazırda Krallığın bərpa olunan enerji istehsalı sahəsindəki təcrübəsindən bəhrələnməyi nəzərdə tutan layihələr üzərində işləyir. Belə ki, Səudiyyə Ərəbistanının bu sahədə ixtisaslaşmış “ACWA Power” şirkəti Azərbaycanda mühüm layihələr icra edir. “ACWA Power” Azərbaycanda fəaliyyətə 2020-ci ildə başlayıb. Şirkət dövlət qurumları ilə dayanıqlı enerji portfelinin formalaşdırılması üzərində işləyir. 2024-cü ildə 240 MVt gücündə külək elektrik stansiyasının tikintisinə başlayıb - bu, Azərbaycanda özəl developer tərəfindən həyata keçirilən ilk və ən böyük külək enerjisi layihəsidir. O, 300 minə yaxın ev təsərrüfatını elektrik enerjisi ilə təmin edəcək və ildə təxminən 400 min ton CO emissiyasının qarşısını alacaq. Tikinti işlərinin 2025-ci ilin sonuna qədər başa çatdırılması gözlənilir.

Bundan əlavə, gündə 300 min kubmetr gücündə Xəzər dənizinin suyunun duzsuzlaşdırılması layihəsinin həyata keçirilməsi də “ACWA Power” şirkətinə həvalə edilib. Danışıqların uğurla başa çatacağı və müqavilənin imzalanacağı halda şirkət dərhal tikintiyə başlamağa hazır olduğunu elan edib. Layihənin 2028-ci ilə qədər həyata keçirilməsi planlaşdırılır.

Səudiyyə şirkəti həmçinin Azərbaycanda əlavə külək qurğularından və batareya enerji saxlanc sistemlərindən tutmuş perspektivli dəniz külək enerjisi layihələrinə və həm Türkiyə istiqamətində, həm də Qara dəniz vasitəsilə Avropaya regionlararası enerji xətlərinə qədər yeni istiqamətləri fəal şəkildə araşdırır.

“ACWA Power”in Azərbaycan və Türkiyə üzrə baş direktoru Selim Güven Bakı Enerji Forumu çərçivəsində verdiyi məlumata görə, şirkət 2030-cu ilə qədər öz layihə portfelində bərpa olunan enerji mənbələrinin (BOEM) payını 80 faizə, layihələrin sayını isə 250-yə çatdırmağı planlaşdırır.

Səudiyyə Ərəbistanının müasir texnologiyalar, xüsusilə də süni intellekt sahəsində investisiyalarının sürətli artımı da diqqəti cəlb edir. Belə ki, Vəliəhd Şahzadə Məhəmməd bin Salman tərəfindən elan edilən “Humain” süni intellekt təşəbbüsü Amazon, Nvidia və AMD kimi süni intellekt sahəsində dünya öncülü olan nəhənglərlə çoxmilyard dollarlıq strateji tərəfdaşlıq sazişləri imzalayıb. Razılaşmalar ABŞ Prezidenti Donald Trampın mayın ortalarında baş tutan Səudiyyə Ərəbistanına səfəri zamanı açıqlanıb.

Əldə edilən razılaşmalar çərçivəsində Səudiyyə Ərəbistanının “DataVolt” şirkəti ABŞ ərazisində data-mərkəzlərinin və enerji infrastrukturunun tikintisinə təxminən 20 milyard dollar sərmayə qoyacaq. Həmçinin Səudiyyə Ərəbistanının NASA-nın Artemis II missiyasında iştirak edəcəyi elan edilib.

Bundan əlavə, Amazon Web Services (AWS) “Humain” ilə birgə “Süni İntellekt Zonası” adlandırdıqları genişmiqyaslı bir süni intellekt bölgəsi qurur. Təxminən 5 milyard dollarlıq bu investisiya xüsusi serverləri, inkişaf etmiş şəbəkə infrastrukturunu, təlim və sertifikatlaşdırma proqramlarını əhatə edir. AWS həmçinin Səudiyyə Ərəbistanını əsaslı təşəbbüslərə süni intellekt həlləri ilə çıxış imkanı təmin etməyi öhdəsinə götürüb. Bu layihə Amazonun əvvəllər elan etdiyi 5.3 milyard dollarlıq məlumat mərkəzinə investisiyadan ayrı bir layihə kimi həyata keçiriləcək.

Nvidia “Humain”ə 18.000 ədəd yeni nəsil süni intellektə yönəlmiş GPU göndərəcək. Nvidia tərəfindən göndərilən avadanlıq 500 meqavatlıq məlumat mərkəzinin əsasını təşkil edəcək. AMD də “Humain” ilə 10 milyard dollarlıq süni intellekt tərəfdaşlığına başlayır. Razılaşmanın bir hissəsi olaraq, beş il ərzində əlavə 500 meqavatlıq süni intellekt hesablama gücü yaradılacaq. Bu infrastruktur AMD-nin yüksək performanslı süni intellekt avadanlığı və açıq mənbəli ROCm proqram təminatı ilə dəstəklənəcək.

"Humain" layihəsi çərçivəsində Səudiyyə Ərəbistanında 500 meqavatlıq süni intellekt “fabrikləri” qurulacaq. Bu mərkəzlər, hyperscale data mərkəzi konsepsiyası ilə süni intellekt modellərinin zənciri üzrə bütün mərhələləri - təlimdən yerləşdirməyə qədər - bir platformada birləşdirəcək. Layihə ölkənin “Vision 2030" strategiyasında rəqəmsal transformasiyanı sürətləndirmək üçün mühüm rol oynayır.




Səudiyyə Ərəbistanının ABŞ-da səhiyyə sahəsindəki layihələri xüsusilə seçilir. Bura ilk növbədə Miçiqan ştatında ümumi dəyəri 5,8 milyard dollar olan tibbi qarışımların istehsalı üzrə yeni yüksək texnologiyalı zavodun yaradılması layihəsi aiddir.

Göründüyü kimi, Səudiyyə Ərəbistanı ilə investisiya əməkdaşlığı Azərbaycanın yüksək texnologiyalar sahəsinə çıxışını asanlaşdıra, iştirakını genişləndirə bilər.

**İqtisadçı Eldəniz Əmirovun “Yeni Müsavat”a dediyinə görə, bir ölkə birgə fond yaratmaq üçün hansısa ölkəyə müraciət etmək istəyərdisə, ən uğurlu seçim məhz Səudiyyə Ərəbistanı olardı:** “Onların pula yanaşma tərzləri bir dəyər kontekstindən çıxıb. Maliyyə əlçatanlığı o qədər genişdir ki, istənilən tərəfdaşın Səudiyyə Ərəbistanı ilə investisiya əməkdaşlığı uğurlu bir addımdır. Buna görə də bu ölkə ilə birgə investisiya fəaliyyətinə başlamaq Azərbaycan üçün birmənalı olaraq uğurdur. Çünki ərəblərin investisiya düşüncəsi çox zəngindir. Onlar Qərb investorları kimi investisiya təhlilini çox dərin və eyni zamanda ən xırda detalları hesablamaqla həyata keçirmirlər. Onlar üçün hədəflər bir qədər fərqlidir: strateji tərəfdaşlıq və genişlənmə. Hesab edirəm ki, birgə fonda ərəb tərəfinin qatqısı daha çox olacaq”.

**İqtisadçıya görə, yaradılacaq fondun uğur qazanmaması mümkün deyil:** “Belə bir hal baş versə, sırf idarəetmədən qaynaqlana bilər. Hərçənd mən uğursuzluq deyil, ciddi uğurlar gözləyirəm. Düşünürəm ki, Azərbaycan yaranan fürsəti layiqincə dəyərləndirməklə fondun fəaliyyətindən maksimum faydalana biləcək”.

❑ **Dünya SAKİT, “Yeni Müsavat”**

Yeni Müsavat
N 101 (8711) 13 iyun 2025

**Azərbaycan musiqisinin zirvəsində dayanan, muğam sənətimizin yaşayan əfsanəsi, xalq artisti Alim Qasımovun son günlər sosial şəbəkələrdə yayılan görüntüləri ciddi müzakirə mövzusuna çevrilib. Səbəb isə sənətkarın bir toy məclisində, gülərüz zarafatla rep tərzində etdiyi improvizasiya olub.**



# Alim Qasımovun rep oxuması - kimlər nə dedi?

## Tənqid edənlər də var, dəstək verənlər də...

Görüntülərin yayılması ilə yanaşı, sosial şəbəkələrdə və bəzi media platformalarında Alim Qasımovun bu ifasına qarşı tənqidi münasibətlər də artmağa başladı. Bəzi şəxslər belə hesab etdilər ki, muğam kimi ağır və dərin bir sənətin ustadı olan şəxsə rep kimi yüngül və çağdaş bir janra toxunmaq yaraşmır. Onların fikrincə, bu sənətkarın öz musiqi kimliyinə "kölgə" salır və muğamın dəyərini aşağı salmaq kimi başa düşülə bilər.

Ancaq bu tənqidlərin əksinə olaraq, daha çox insan bu çıxışı sənətkarın özünəməxsus yumor hissi, janrlararası körpü yaratmaq istəyi və insanlara yaxın olmaq arzusu kimi dəyərləndirir.

**Şair Şəhriyar Del Gerani xanəndənin rep oxumasını sərt tənqid edib:** "Alim Qasımov toyda rep deyib. Yaxşı eləyib. Bizə bu da azdır. Sözüm onda yox. Adiliyin təntənəsini tapıb, yaşayır özü üçün. Alilikdə təntənə olmur onsuz da. Seyid cəddinə inanan kimi Alim müəllim də səsinə inandı, Allahın bəxş etdiyi istedadın üstünə bir qram bilgi, bir damcı intellekt qoymadı bu fani ölkədə. 90% muğam ifaçıları, misal, Alim müəllim də nə oxuduğunu sözün həqiqi mənasında bilmədi, bilmir. İndi Alim bəy də rep deyib, öz işidir. Amma könül istərdi belə sənətkarlar öz obrazlarına xələl gətirməsinlər. Rep də gözəldir, əladır. Amma yaxşı olardı repi Xose desin, Qaraqan, Uran, PRo-Mete, Xpert, Paster desin, Buzz, Rio, Saybu desin, Alim Qasımov yox..."

**Yazıçı Şərif Ağayar isə məsələyə bu cür mövqe bildirib:** "Alim rep demir, ortaq bir ritm tutub səhnəyə çıxır, onu göstərir və düşür. O, intonasiyanın, ahəngin, ritmin mahir ustadıdır. Dəlilik həddində bilir və duyur. Bu heç. İkinci, rep oxusa belə eyib deyil. Elton Con sahildə konsert verib, pianosunu yandırdı, indi deyək, yüngüllük edib? Nəhayətində Alim də bir sənət, bir şou adamıdır. Rep də deyə bilər, meyxana da, lap yanıltmac da. Məsələ bunda da deyil. Məsələ Azərbaycanın məşhur sənət adamlarının əksəriyyətinin mahiyyətcə "manıs" olmasındadır: ictimai mövqeləri yox, kitab oxumurlar, pul-parasını, ev-eşiyini, orden-medalını ver, qabağında "İnnabı" oynasın... Bunun Manafı da belədir, Alimi də, Nəriman Həsənzadəsi də... Onurğası yoxdur Azərbaycan sənətçisinin. Amorfdur. Hər qaba doldura bilərsən. Bax əsl dərd budur. Bu dərdin qarşısında Alimin rep deməsi bunun yanında elə rep deməkdir".

**Müğənni Nura Suri isə Alim Qasımovun rep deməyini tənqid edənlərə cavab verib**: "Alim Qasımovun toydakı görüntüləri yayılıb. Cəmiyyətimiz də tökülüşüblər şərhlərdə ağızlarına gələni yazıblar. Elə bil oturub gözləyirlər ki, kimsə nəsə etsin, bunlar da klaviatura "qəhrəmanları" öz zəhərlərini töksünlər şərhlərə. Yaşlı insan əylənə bilməz? Zarafat edə bilməz? Elə bil ki, hamı hakimdir, həyat da məhkəmə. Qınanılası o qədər mühüm məsələlər var ki, onları görməzdən gəlməkdən bezmirsiniz, amma insanları əyləndiklərinə görə rahatlıqla təhqir edə bilirsiniz. Bir özünüzə də baxın, niyə bu qədər nifrəti içinizdə bəslədiyiniz səbəblərini də axtarın".

**Xalq artisti Alim Qasımov isə "Qaynarinfo"ya açıqlamasında bu çıxışın zarafat olduğunu deyib:** "Səhnəyə çıxanda kefimə düşdü, zarafat etdim. Bu zarafatı da camaat min yerə yozur, Allah işlərini avand eləsin. Amma hamı bilsin ki, bu, gülməli və söyüşlü bir çıxış deyil. Mənim ifalarım, sənətim qalıb bir yanda, zarafatyana bir rep deməm, hamı düşüb onun ardınca. Özləri bilər, nə istəyirlər desinlər. Alqışlayanlara salam deyirəm, bu zarafatdır. Öz dostlarımla etdiyim zarafatı səhnədə etdim. Mən nə bilim çəkəcəklər? Bu öz dostumuzun toyudur. Zarafat etdim, ardınca da muğam oxudum. Onu yayanda bunu da yayın da. Bundan sonra daha çox zarafatlar hazırlayacağam".

**O, "Dünya şöhrətli xanəndə niyə repə baş qoşur, axı bu Alim Qasımov sənəti deyil" deyənlərə belə cavab verib:** "Çünki selə düşmüşük. Sel bizim ayağımızı yerdən üzüb aparır. Bir də baxırıq ki, su üzərindəyik və gedirik. Palaza bürün, elnən sürün. Mən də sürünməyə hazırlaşıram".

**Xalq artisti Gülyanaq Məmmədova "Yeni Müsavat"a açıqlamasında mövzu ilə bağlı fikirlərini belə ifadə edib:** "Alim Qasımov muğam sənətinin canlı əfsanəsidir. O, bir zarafat edə bilməzmi? Axı bu insan da bizim kimi insandır. Musiqinin istənilən janrında sınaq edə, özünü ifadə edə bilər. Hələ də anlaya bilmirəm ki, Alim Qasımovu bu qədər sərt tənqid etməyin səbəbi nədir? Halbuki tənqid olunmalı o qədər məsələ var ki... Axı Alim Qasımov sənətkardır - illərdir xalq üçün çalışan, muğamımıza, mədəniyyətimizə xidmət edən bir şəxs. Biz yaxşıları görmək və onları təqdir etməkdə çətinlik çəkirik. Adam bir dəfə zarafatla rep deyib, bir qədər fərqli janrda çıxış edib - bu, onu təhqir etməyə əsas verirmi?

Alim Qasımovun özü də, adı da, ifası da alimdir. Bu məsələnin bu qədər böyüdülməsi, sənətkarın belə haqsızlıqla üzləşməsi mənə, bir sənət adamı kimi, çox ağır təsir edir."

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

# Özəl Pensiya Fondu gerçəkləşir - qanun hazırlanır

## Yeni sistem necə işləyəcək?

**Azərbaycanda qeyri-dövlət (özəl) pensiya fondlarının yaradılması və fəaliyyətinin hüquqi tənzimlənməsi məqsədilə yeni qanun layihəsi hazırlanıb. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən məlumat verilib. Nazirliyin yaydığı açıqlamada bildirilir ki, qeyri-dövlət pensiya fondları ilə bağlı hüquqi bazanın tam formalaşdırılması məqsədilə "Qeyri-dövlət pensiya fondları haqqında" Azərbaycan Respublikasının Qanun layihəsi hazırlanıb. Hazırda layihə aidiyyəti dövlət qurumları ilə razılaşdırma mərhələsindədir.**




Qeyri-dövlət pensiya fondları dövlət tərəfindən idarə olunan əsas pensiya sisteminə alternativ və ya tamamlayıcı vasitə kimi çıxış edir. Bu fondlar fərdi şəxslərin və müəssisələrin könüllü əsaslarla yığımları hesabına formalaşır və idarə olunur. Sistemin məqsədi əmək qabiliyyətini itirdikdən sonra vətəndaşların əlavə gəlir mənbəyini təmin etməkdir.

Qeyri-dövlət pensiya fondları hazırda bir çox ölkədə geniş şəkildə tətbiq olunur. Məsələn, Almaniyada pensiya təminatı üç pilləli model əsasında qurulub: dövlət pensiyası, işəgötürən tərəfindən verilən kollektiv pensiya və şəxsi (özəl) pensiya. Özəl pensiyalar vergi güzəştləri və dövlət subsidiyaları ilə təşviq edilir. Böyük Britaniyada avtomatik qeydiyyat sisteminə əsasən işçilər özəl pensiya fondlarına qoşulur və bu fondlar dövlətin nəzarəti altında fəaliyyət göstərir.

İrlandiyada qeyri-dövlət pensiya planları könüllü xarakter daşıyır və əsasən işəgötürənlərin təşəbbüsü ilə yaradılır.

Türkiyədə 2017-ci ildən tətbiq edilən Avtomatik Qeyd Sistemi (OKS) vasitəsilə bütün işçilər özəl pensiya fondlarına cəlb edilir. Dövlət iştirakçıların yığımına əlavə ödənişlər etməklə prosesi təşviq edir.

Qeyri-dövlət pensiya fondlarının tətbiqinin bir sıra üstünlükləri var. Məsələn, şəxsi seçim imkanı yaradır: vətəndaşlar pensiya təminatında əlavə seçim hüququ qazanır. Həmçinin yığımların diversifikasiyası mükündür. Yəni yığımlar müxtəlif investisiya alətlərinə yönəldilərək gəlir artırıla bilər.

Bu fondlar eyni zamanda dövlət üzərindəki yükü də azaldır. Yəni uzunmüddətli perspektivdə dövlət büdcəsinə düşən sosial təminat yükü azalır. Və insanlar öz maliyyə gələcəkləri haqqında daha çox düşünməyə başlayır.

Məlumata görə, vətəndaşlar pensiya kapitalının bir hissəsini özəl pensiya fondlarına yönəltmə imkanı əldə edəcək. Vətəndaş 50-55 yaşında toplanan pensiya kapitalını birbaşa götürərək hansısa məqsədlər üçün istifadə edə biləcək. Pensiya kapitalının DSMF-də qalan hissəsindən isə təqaüd almaqda davam edəcək. Birbaşa götürüləcək pensiya ödənişinin 50-70% civarında ola biləcəyi bildirilir. Bununla belə, vətəndaşın bu sistemə qoşula biləcəyi və birbaşa pensiya məbləğindən istifadə edə biləcəyi yaş, o cümlədən ödəniləcək birbaşa pensiya məbləği və bəzi digər məqamlar hələlik müzakirə predmetidir.

Bəs özəl Pensiya Fonduna vətəndaşlar tərəfindən ödəmələr necə həyata keçiriləcək? Və ayda nə qədər ödəniləcək? Vətəndaş konkret neçə ildən sonra ödədiyi məbləği tam götürə bilər?

**İqtisadçı Xalid Kərimli "Yeni Müsavat"a açıqlamasında bildirib ki, qanun həm kapital bazarının inkişafına gətirib çıxaracaq, həm də vətəndaşlar üçün əlavə seçim imkanları yaradacaq**: "Vətəndaşın bu kapitaldan nə zaman istifadə edə biləcəyini və nə qədər ödəyəcəyini qanun layihəsi açıqlananda biləcəyik. Özəl fondun üstünlüyü ondan ibarətdir ki, vətəndaşa seçim imkanı verir, burada məcburiyyət yoxdur. Necə ki "Həyat" sığortası üçün seçim edirlər, iştirak edək-etməyək, özəl pensiya sistemində də bu cür olacaq. Amma "Həyat" sığortası üç illik bir mexanizmdir, yığım sığortasıdır. Özəl pensiyada isə bu daha uzunmüddətli olacaq və şərtlər bir az fərqli olacaq. Könüllü şəkildə şəxs əməkhaqqının müəyyən faizini özəl pensiya fonduna köçürə bilər. Bu, məcburi deyil, kim istəsə, iştirak edəcək, müəyyən dövrdən sonra istəmədikdə isə bunu dayandıracaq. İcbari pensiya sistemində isə biz iştirak etmək məcburiyyətindəyik, maaşımızdan 3 faiz tutulur. Qaydalar Milli Məclisə təqdim olunanda sonra bəlli olacaq. Dünya təcrübəsində özəl pensiya fondunun üstünlüyü odur ki, vətəndaş pensiya yaşına çatanda ola bilsin məbləği tam götürsün. Digər bir məqam isə ondan ibarətdir ki, özəl pensiya fondunda varislik məsələsi olacaq. Şəxsin başına bir iş gəlsə, onun varisləri özəl pensiya fondundakı məbləğdən faydalana biləcək. Yəni pul batmayacaq. Təbii ki, ilkin razılaşdırılmış formada.

Həmin məbləği nə zaman götürə bilərik məsələsinə gəlincə isə əlbəttə, yaş məhdudiyyəti olacaq. Yəqin ki, icbari pensiya sistemindəki kimi 65 yaş olmayacaq, daha az yaş göstəriləcək. Bütün bunlar detallarda müəyyənləşəcək. Üstünlüyü odur ki, dövlət nəzarət edəcək, insanlar risk etməyəcək. Bunu peşəkar menecerlər idarə edəcək. O pul peşəkar menecerlər tərəfindən yatırımlar ediləcək. Yəni uzunmüddətli investisiyadır. Dövlət nəzarətində xüsusi lisenziya şərtləri altında olacaq. Bizim pul investisiya ediləndə isə üzərinə müəyyən məbləğ gələcək. Bu da kapital bazarının inkişafına təkan olacaq.

Adətən Qərbdə yaxş işçi problemi olduğuna görə şirkətlər özəl pensiyanı əməkhaqqı paketinə əlavə edirlər. Azərbaycanda isə işçi problemi yoxdur. Maliyyə bazarları və insanların yığımı üçün özəl pensiya sistemi çox yaxşıdır".

❑ **Şahanə RƏHİMLİ, Musavat.com**

YENİ MÜSAVAT

Son səhifə

N 101 (8711) 13 iyun 2025

iyun


## Bunları bilirsinizmi?

* Arı balı 4 əsr qalır, lakin xarab olmur. Lakin balın da saxlama qaydaları var.
* Təyyarədə olanda saçlar iki dəfə sürətlə uzanır.
* Açıq gözlə asqırmaq mümkün deyil.
* Qlobal istiləşmə bəşəriyyəti pivədən məhrum edəcək.
* Mavi gözlü insanlar ağrıya daha həssasdırlar.
* Arılar dördə qədər saya bilirlər.
* İnsan bədənində 5 hovuzu təmizləyə biləcək miqdarda xlor var.
* Qulaq temepraturu həmişə bədən temperaturundan 1,5-2 dərəcə aşağıdır.
* Qarışqa öz çəkisindən 111 dəfə çox yük apara bilir.
* Braziliya növündən olan arılar turş bal hasil edirlər.
* Arı balı 4 əsr qalır, lakin xarab olmur.

# Şillə qazax gənci ulduz etdi



Qazaxıstanlı gəncin avtobusda qadın tərəfindən döyülməsi onun həyatını dəyişib. Belə ki, kadrlar sosial şəbəkələrdə viral olduqdan bir gün sonra 22 yaşlı gənc ilk modellik müqaviləsini imzalayıb. Gəncin sözlərinə görə, hadisə səhər avtobusla gedərkən baş verib. İctimai nəqliyyat dolu olub və o, vaxtını keçirmək üçün telefonda şahmat oynayıb. "Əlim keyidiyinə görə onu digər əlimə keçirdim. Bundan sonra yanımdakı qadın bir neçə dəfə əlimə vurdu. Bu andan etibarən mən video çəkməyə başladım", - deyə o danışıb. Kadrlardan görünür ki, qadın videoya çəkildiyini anlayanda qışqıraraq onun başına vurmağa başlayıb, yalnız digər sərnişinlərin müdaxiləsi ilə əməlinə son qoyulub.

## Ən hündür qadın təyyarədə 6 bilet alır



Dünyanın ən hündür qadını uçuşlar zamanı təxminən altı aviabilet üçün ödəniş etməli olduğunu açıqlayıb. Məlumata görə, söhbət 215 santimetr boyu olan Rumeysa Gelgidən gedir. Ginnes rekordunun sahibi üçün təyyarədə, avtomobildə və ya hər hansı digər nəqliyyat vasitəsində səyahət etmək elə də asan iş deyil. Nəşrin yazdığına görə, Türkiyədə yaşayan Rumeysa adətən əlil arabasında və ya xüsusi əsanın köməyi ilə hərəkət edir. Onun hündür boyu Uiver sindromu adlı nadir xəstəliyin nəticəsidir ki, bu da digər şeylərlə yanaşı, sürətlənmiş böyüməyə səbəb olur.

Rumeysa Türk Hava Yolları sayəsində dünyanı gəzə bilir: "Turkish Airlines" aviaşirkəti öz təyyarələrindən birində altı oturacağı söküb və xüsusi hazırlanmış xərək quraşdırıb. Qız adi təyyarə oturacaqlarında otura bilmədiyi üçün onu xərəkdə göyərtəyə qaldırırlar və bütün uçuşu uzanaraq keçirir. O həmçinin tibb işçiləri ilə görüşmək üçün uçuşdan dörd saat əvvəl hava limanına gəlməli və xərəyin tutduğu yerin pulunu ödəməlidir ki, bu da adətən altı stula bərabərdir.

KİV-in məlumatına görə, frilans-tərtibatçı ildə ən azı bir dəfə aviauçuş həyata keçirir. Gələcəkdə qız Tokio, Kioto, Şanxay və Seul kimi şəhərləri ziyarət etmək istəyir.

# Gündə 200 dəfə dartınan 92 yaşlı çinli...



Çin sakini olan 92 yaşındakı Li soyadlı qadın sosial şəbəkədə əsl sensasiyaya çevrilib. Yaşlı qadın hər gün məşqlər toplusunu yerinə yetirir ki, bu, hətta peşəkar idmançıları belə heyrətə gətirib. Qadın gündə 200 dəfə jim və 100 ayaqqaldırma hərəkəti edir. Məlumata görə, Li bu yaxınlarda ənənəvi Çin təbabəti festivalında çıxış edərək, öz uzunömürlülük və aktivlik sirlərini bölüşüb. Lakin məhz onun fiziki hazırlığı internetin Çin seqmentində əsl ajiotaj doğurub.

"Mən məşqləri yerinə yetirərkən texnikanın mükəmməl olub-olmamasına elə də çox əhəmiyyət vermirəm, amma gündəlik məşqlərimi heç vaxt qaçırmıram", - deyə yaşlı qadın etiraf edib. Yaşının çox olmasına baxmayaraq, o, heyrətamiz elastiklik və hərəkətlər koordinasiyası nümayiş etdirir, halqanı belində asanlıqla fırladır və digər fiziki məşqləri yerinə yetirir.

Maraqlıdır ki, Li evdə idman etməyə üstünlük verir, xüsusən də onun bölgəsində tez-tez rast gəlinən yağışlı havalarda. Bu, ona öz məşqlərində nizam-intizamı qorumağa mane olmur.

Təqaüdçü qadının bir gözlənilməz açıqlaması isə xüsusilə diqqət cəlb edib. Li qeyd edib ki, müntəzəm fiziki yüklənmələr nəinki onun sağlamlığını yaxşılaşdırıb, həm də görünüşünə müsbət təsir göstərib. Qadının sözlərinə görə, onun boz saçları zaman keçdikcə nəzərəçarpacaq dərəcədə tündləşib - bu fenomen sosial şəbəkə istifadəçiləri arasında kifayət qədər mübahisələrə səbəb olub. Fiziki məşqlərdən əlavə, xanım Li sağlamlığı qorumaq üçün daha bir ritual həyata keçirir - hər axşam o, ayaqlarını isti suya qoyur. Ənənəvi Çin təbabətinə əsasən, bu prosedur qan dövranının və bədənin ümumi sağlamlığının yaxşılaşmasına kömək edir. 92 yaşlı çinli qadının hekayəsi yaşın aktiv həyat tərzinə və fiziki inkişafa mane törətmədiyinə dair ilhamverici nümunə kimi çıxış edir.

## Yayda ən təhlükəli qidalar



Yayda zəhərlənmə riski xeyli artır və bu səbəbdən bəzi məhsulların istehlakı zamanı diqqətli olmaq lazımdır. Bu barədə qida təhlükəsizliyi sahəsində rusiyalı mütəxəssis Yelena Spetsenko Lenta.ru-ya müsahibəsində danışıb. O, isti havalarda sağlamlıq üçün ən təhlükəli qida məhsullarını sadalayıb. Yelena Spetsenkonun sözlərinə görə, yüksək temperatur bakteriyaların çoxalması üçün ideal şərait yaradır və bəzi məhsullar xüsusilə təhlükəli hala gəlir. O xəbərdarlıq edib ki, tərkibində zülal olan və tez xarab olan məhsullar ilk növbədə risk altındadır.

"İsti havada mal və quş əti daha təhlükəlidir, xüsusilə də düzgün şəkildə saxlanmayıblarsa. Bir neçə saat günəş altında qalan bişmiş kabab salmonella və ya bağırsaq çöpü (E. coli bakteriyaları) mənbəyinə çevrilə bilər. Eyni şey hazır ət məhsullarına - kolbasa, paştet, kotletlərə də aiddir", - deyə ekspert bildirib. Spetsenko əlavə edib ki, istidə süd məhsulları da eyni şəkildə təhlükəlidir. "Kəsmik, xama, qatıq və yumşaq pendirlər patogen mikroorqanizmlərin çoxalması üçün əlverişli mühit yaradır. Hətta istifadə müddəti hələ başa çatmamış olsa belə, düzgün saxlanmadıqda, bu məhsullar ciddi həzm pozğunluqlarına səbəb ola bilər. Qaymaq əsaslı desertlər xüsusilə təhlükəlidir. Onlar demək olar ki, hiss edilmədən xarab olur. Lakin onlardan istifadə çox ciddi nəticələrə gətirib çıxara bilər", - deyə o qeyd edib.

Bundan əlavə, ekspertin sözlərinə görə, balıq və dəniz məhsulları da risk altındadır. Onlar isti havada tez xarab olurlar, buna görə də hətta kiçik xoşagəlməz qoxu belə, parçalanma proseslərinin başlandığını göstərə bilər. "Mayonez və digər souslu salatlar da ən təhlükəli yay məhsulları siyahısına daxildir. Rütubətli mühit və inqrediyentlərin bolluğu bakteriyalar üçün ideal şərait yaradır. Salat təzəcə hazırlanmış olsa belə, artıq açıq havada bir saat qaldıqdan sonra orada mikroorqanizmlər aktiv şəkildə çoxalmağa başlayır", - deyə Yelena Spetsenko vurğulayıb. "İsti havalarda qida seçiminə və onların saxlanmasına xüsusilə diqqətli yanaşmaq lazımdır. Küçə yeməklərindən uzaq durmaq, şübhəli yerlərdə tez xarab olan məhsullar almaqdan çəkinmək, həmişə yararlılıq tarixlərini (son istifadə tarixi) yoxlamaq və hazır yeməkləri ancaq soyuducuda saxlamaq lazımdır. Zəhərlənmənin ilk əlamətləri - ürəkbulanma, halsızlıq, ishal zamanı dərhal həkimə müraciət etmək lazımdır", - deyə mütəxəssis əlavə edib.

Səhifəni hazırladı: SELCAN


Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lisenziya N: B 114
SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.